RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 27 (8620) ŞƏNBƏ, 6 fevral 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



# Müasir Azərbaycanın gücü

**Yaşadığımız dövr, zəmanə reallıqlar dünyasıdır. Beynəlxalq ictimaiyyət hansısa məsələ barədə rəy formalaşdırarkən həmin reallıqlara istinad edir. Həyatımızda baş verənlər, gerçəkliklər isə göz önündədir. Prezident İlham Əliyevin ötən onilliklərdə həyata keçirdiyi siyasət Azərbaycanı Cənubi Qafqazın əsas inkişaf mərkəzinə çevirdi. Hazırda ölkəmiz regionun müasir iqtisadi-siyasi mənzərəsini müəyyənləşdirən qlobal layihələrin həm təşəbbüskarı, həm də icraçısıdır. Bu layihələr bizə sülh, davamlı inkişaf, vətəndaşlara rifah gətirir. Onlardan böyük bir coğrafiyada yaşayan insanlar da faydalanırlar. Azərbaycanın tutduğu yol, təklif etdiyi gələcək hər kəsin maraqlarına xidmət edir. Hər kəs üçün daha gözəl bir dünyanın qurulmasına töhfə verir.**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 44 günlük Vətən müharibəsində ordumuzun gücü ilə tarix yazdı. Xalqını öz milli hədəflərinə çatdırdı, Azərbaycan dövləti ən yüksək zirvəsinə ucaldı, ən qüdrətli mərhələsinə yetişdi. Qazanılan bu zəfər, bu nailiyyət möhtəşəm və qürurludur, ən başlıcası isə böyük şəxsiyyətlərin vaxtilə xalqı yetirmək arzusunda olduqları misilsiz milli hədəflərdir. Artıq qələbə ilə tamamlanan yeni bir dövr öz sözünü deməyə başlayıb.

Azərbaycan Prezidenti 1 fevral 2021-ci ildə Abşeron Rayon Xəstəxanasının yeni inşa edilmiş binasının açılışından sonra Azərbaycan televiziyasına müsahibə verdi. Həmin müsahibədə cavablandırılan sualların əhatəliliyi, toxunulan məsələlər, verilən bəyanatlar cəmiyyətdə böyük maraqla qarşılandı. Müəyyən problemlərə aydınlıq gətirildi, münasibət bildirildi, mövqe açıqlandı.

## 17 ildə 750-dən çox yeni xəstəxana tikilib və ya təmir edilib

Müsahibə yeni səhiyyə müəssisəsinin açılışı tədbirinə təsadüf etdiyindən Prezident İlham Əliyevin qeyd etdiyi məsələlərin bir hissəsi son illər səhiyyə sahəsində aparılan inkişaf dəyişiklikləri, yeni tikilən tibb ocaqları ilə bağlı oldu. Digər bölgələrimizdə olduğu kimi, Abşeronda da həm memarlıq, həm təchizat baxımından ən müasir tələblərə cavab verən yeni xəstəxanaların tikilməsi səhiyyə siyasətinin uğurla davam etdirildiyini göstərir. Azərbaycan Prezidenti müasir şəraiti olan bir xəstəxanada vətəndaşlarımıza yüksək səviyyədə tibbi xidmətin göstərilməsini burada çalışacaq 200-dən çox həkim və bütövlükdə 600-dən artıq tibb işçisi qarşısında vəzifə kimi müəyyənləşdirdi. Dövlət rəhbəri müsahibəsində onu da xatırlatdı ki, son 17 il ərzində Azərbaycanın ayrı-ayrı regionlarında 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib. Bu, hər il milyonlarla vətəndaşımızın dövlət hesabına ödənişsiz tibbi müayinədən keçməsinin mümkünlüyünü göstərir. Eyni zamanda xəstəxanaların müasirləşdirilməsi Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqinə də şərait yaradıb.

Azərbaycan Prezidenti müsahibəsində ölkəmizdə koronavirus pandemiyasına qarşı aparılan mübarizə tədbirləri haqqında suallara da cavab verdi. Bu tədbirləri ümumilikdə müsbət qiymətləndirən dövlət rəhbəri qeyd etdi ki, vəziyyətin bir il ərzində nəzarət altında saxlanmasında yeni laboratoriyaların ölkəyə gətirilməsinin xüsusi rolu olub. Çünki pandemiyaya qədər Azərbaycanda cəmi 8 laboratoriya olub və bu da gün ərzində cəmi min testin keçirilməsinə imkan verib. Hazırda isə laboratoriyaların sayı 42-dir. Bu laboratoriyalarda gündə 20 min test keçirilir. Qeyd edək ki, indiyədək 2 milyon 400 min test keçirilib və bu da böyük göstəricidir.

## Pandemiyaya qarşı mübarizədə "Azərbaycan modeli"

Pandemiya dövrünün ilk günlərindən modul tipli xəstəxanaların ölkəyə gətirilməsinə nail olan Azərbaycan bu sahədə də liderlik nümayiş etdirib. Qısa müddətdə ölkə ərazisində 13 modul tipli xəstəxananın quraşdırılmasına nail olunub. Bəzi ölkələr məhz Azərbaycanın ardınca modul tipli xəstəxanaların gətirilməsinə başlayıb və sifarişlər kütləviləşdiyindən onların istehsalında vaxtla bağlı müəyyən problemlər özünü göstərib.

Xüsusi vürğulanmalıdır ki, Azərbaycan dövlətinin həyata keçirdiyi qabaqlayıcı tədbirlər sayəsində son həftələr pandemiya ilə bağlı müsbət dinamika müşahidə olunur. Sağalanların sayı xəstəliyə yoluxanların sayını xeyli üstələyir. Ölkə rəhbəri məhz bunu nəzərə alaraq karantin tədbirlərində yumşalma mərhələsinə qədəm qoyulduğunu diqqətə çatdırdı. Eyni zamanda bildirdi ki, dövlət bu müddət ərzində həm insanların sağlamlığını qorumaq, həm də vətəndaşlara lazım olmayan halda əlavə çətinliklər yaratmamaq üçün vəziyyətə uyğun şəkildə addımlar atıb.

Ölkə Prezidenti onu da qeyd etdi ki, xəstəliyin təhlükələrini, onunla bağlı qeyri-müəyyənlikləri, elmi tədqiqat nəticələrinin bəlli olmamasını nəzərə alaraq Azərbaycan ilk günlərdən lazımi addımlarını atıb. Eləcə də Ümumdünya Səhiyyə Təşkilatı ilə təmaslar quraraq bu sahədə maksimum səmərəli iş aparmaq üçün ciddi şəkildə çalışılıb.

*Ardı 3-cü səh.*

# İlham Əliyevin yeni inkişaf modeli

## Azərbaycanın 2030-cu il hədəf prioritetləri milli yüksəlişin müasir yol xəritəsidir

**Dünya ölkələri üçün 2021-ci il postkoronavirus dövrü kimi xarakterizə edilsə də, Azərbaycanda bu dönəm həm də postmüharibə dövrünün ilk mərhələsidir.**

44 günlük Vətən savaşı ilə uzun illər davam edən erməni işğalına son qoyulması, ölkə sərhədlərinin tam şəkildə bərpa edilməsi Azərbaycanın iqtisadi imkanları baxımından da yeni səhifə açdı. Xüsusən də Laçın-Kəlbəcər və Yuxarı Qarabağ iqtisadi rayonlarının ümumi Azərbaycan iqtisadiyyatına qoşulması yeni iqtisadi prioritetləri və idarəetmə modelini günün reallığına çevirdi.

### Prezident Azərbaycanın yeni iqtisadi simasını müəyyənləşdirir

Prezident İlham Əliyevin 2 fevral Sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" proqramı ölkə iqtisadiyyatının yaxın 10 il ərzində inkişaf kursunu müəyyənləşdirir. Belə ki, qarşıdakı 10 il ərzində 5 prioritet təmin edilməlidir: *İqtisadiyyatda dayanıqlı artım; hər bir ölkə vətəndaşını əhatə edəcək inklüziv və sosial ədalətli cəmiyyət; insan kapitalının dəyərinin artırılması ilə müasir innovasiyalar üçün əlverişli məkan; Qarabağa böyük qayıdışın təmin edilməsi; Prioritetlər ətraf mühitə zərər vurmamalıdır.*

Prezident İlham Əliyevin məqsədi kəmiyyət deyil, keyfiyyət göstəricilərini yüksəltməklə dayanıqlı iqtisadi artımın təmin edilməsidir. Yəni yeni dönəmdə əsas məsələ yalnız iş yerlərinin sayının artırılması deyil, eyni zamanda yaradılan iş yerlərinin dəyərinin yüksəldilməsi prioritet olaraq müəyyən edilir.

*Ardı 3-cü səh.*

# Milli Prioritetlər iqtisadiyyatın dayanıqlı inkişafına və əhalinin sosial rifahının daha da yaxşılaşmasına yönələn strateji sənəddir

Prezident İlham Əliyevin bu il fevralın 2-də imzaladığı Sərəncamla təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" proqramı ölkə qarşısında duran mühüm məsələlərin səmərəli həlli istiqamətində növbəti addımdır.

Prioritetlər növbəti 10 il ərzində Azərbaycanın sosial-iqtisadi inkişafında vacib olan istiqamətləri özündə əks etdirir.

Öncə qeyd edək ki, bu prioritetlərin müəyyən edilməsi günün tələbidir. Çünki dünyada gedən siyasi-iqtisadi proseslər qarşıya iqtisadiyyatın idarə olunmasının təkmilləşdirilməsi vəzifəsini qoyur. Bu səbəbdən, sənəddə qeyd edildiyi kimi, qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulan məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunu, əsas sosial-iqtisadi inkişaf istiqamətlərini, eləcə də buna uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir.

İndiyədək Azərbaycanda sosial-iqtisadi inkişafın təmin olunması məqsədilə çoxsaylı dövlət proqramları qəbul edilərək həyata keçirilmişdir. Bunun sayəsində ölkə iqtisadiyyatı dinamik inkişaf etmiş, əhalinin sosial müdafiəsi xeyli gücləndirilmişdir. Əməkhaqları, pensiyalar, təqaüdlər və müavinətlər artırılmış, yoxsulluğun səviyyəsi minimuma enmişdir. Məqsədyönlü islahatlar sayəsində ölkəmizdə son 17 ildə iqtisadiyyatın həcminin 3 dəfədən çox artması, güclü sosial-iqtisadi infrastrukturun yaradılması da sıradan faktlar deyil. Məhz bunların sayəsində Azərbaycan mövcud maliyyə imkanlarını tarixi maksimuma çatdırmış və yuxarı orta gəlirli dövlətlər qrupunda yerini möhkəmləndirmişdir.

Prezidentin sözügedən sərəncamında qeyd edilir ki, artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatını dəyişməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı vermişdir. Ölkəmiz regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilmişdir.

*Ardı 4-cü səh.*

# Müsbət dinamika əvvəlki həyata dönüşü sürətləndirir

Yeni tip koronavirus hələ də dünyanın əsas problemi olaraq qalmaqdadır. Ölkələrin qlobal infeksiya ilə hərtərəfli mübarizəsinə baxmayaraq, xəstəlik Yer kürəsində sürətlə yayılmaqda davam edir. Artıq planetin 105 milyona yaxın sakini COVID-19-a yoluxub, 2,4 milyona qədər insan isə bu virus səbəbindən həyatını itirib.

İki aya yaxındır dünyanın bir çox ölkəsində koronavirusdan qorunmağın ən effektiv yolu olan vaksinasiya prosesinə start verilib.

*Ardı 7-ci səh.*




# 100 ilin zirvəsindən

## Rus-türk konfransı və Moskva müqaviləsi

**Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi, xüsusən millətimiz üçün böyük önəm daşıyan Şuşa şəhərini noyabrın 8-də təcavüzkar Ermənistanın işğalından azad etməklə qürurverici tarix yaratdı və noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan arasında üçtərəfli Bəyanat imzalandı.**

Bəyanata uyğun olaraq, yanvarın 30-da Ağdamda Rusiya-Türkiyə Monitorinq Mərkəzi fəaliyyətə başladı. Bu, rus və türk hərbçilərinin Cənubi Qafqazda ilk birgə işi deyildir. Hələ ötən əsrin 20-ci illərinin başlanğıcında belə fəaliyyət göstərilmişdi.



Menşeviklər məğlub edildikdən sonra türk və rus orduları komandanlığının iclası. Batum, 1921-ci il.

Döyüş meydanında acınacaqlı məğlub olan Ermənistan tərəfi, erməni lobbisi və diasporu Rusiya-Türkiyə və Azərbaycan-Rusiya münasibətlərini pozmaq üçün bütün mümkün vasitələrdən istifadə edir. Belə fəaliyyətlər 1921-ci ildə keçirilmiş və bu il 100 illliyi tamam olan rus-türk konfransı və Moskva müqaviləsi imzalanan zaman da edilmiş, lakin nəticəsi olmamışdı. Rus və türk xalqlarının milli maraqları əsassız erməni iddialarının fövqündə dayanmışdı. Elə ona görə də 100 ilin zirvəsindən rus-türk münasibətlərinin tarixi təcrübəsinə nəzər yetirilməsinin faydası var.

### Rus-türk konfransı işə başlayır

XX əsrin 20-ci illərinin əvvəllərində Antanta ölkələrinin Yaxın və Orta Şərqdə, Qafqazda, Qara dənizdə yürütdükləri siyasət və daşnak Ermənistanın onların əlində alət olması sovet Rusiyası və kamalçı Türkiyəni yaxınlaşdırdı. Bu yaxınlaşma keçirilən rus-türk konfransının sonunda Moskva müqaviləsinin imzalanması və ərazi-sərhəd məsələlərinin tənzimlənməsi ilə nəticələndi.

Rus-türk konfransı 1921-ci il fevralın 27-də Moskvada öz işinə başladı. Sovet nümayəndə heyətinin tərkibinə xalq xarici işlər komissarı G.Çiçerin və Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin üzvü Cəlaləddin Qorxmazov daxil idilər.

*Ardı 6-cı səh.*

# Pandemiya dövründə Azərbaycanda neft-qaz hasilatı və ixracı dayanmamışdır

## Əsas layihələr uğurla icra olunmuşdur

**COVID-19 pandemiyasının yaratdığı çətinliklərə və məhdudiyyətlərə baxmayaraq, ölkəmizdə neft və qazın hasilatı, eləcə də ixracı ahəngdar davam edir.**

BP də Azərbaycanda əməliyyatçılıq etdiyi layihələrdə fəaliyyətini vəziyyətə uyğunlaşdırmaqla fasiləsiz iş aparır. Şirkətin 2020-ci ilin yekunları ilə bağlı məlumatında bu barədə ətraflı bəhs olunur.

*Ardı 4-cü səh.*



## Yüen Sikunun “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Yüen Sikun “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2021-ci il*

## Əmək pensiyalarının indeksləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 29.1-ci və 29.1-1-ci maddələrinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 2021-ci il 1 yanvar tarixinə 2020-ci il üzrə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin müəyyən etdiyi:

1.1. orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2021-ci il 1 yanvar tarixinədək təyin edilmiş bütün növ əmək pensiyalarının sığorta hissəsinin;

1.2. istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində 2021-ci il 1 yanvar tarixinədək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2021-ci il*

## Yeni Azərbaycan Partiyası Avropa Xalq Partiyasına etiraz məktubu ünvanlayıb

**Yeni Azərbaycan Partiyası Avropa Xalq Partiyasının (EPP) Siyasi Assambleyasının (PA) 2021-ci il 1 fevral tarixli videokonfransında Azərbaycan ilə bağlı səsləndirdiyi qərəzli bəyanatla əlaqədar etiraz məktubu ünvanlayıb.**

Bu barədə AZƏRTAC-a Yeni Azərbaycan Partiyasından məlumat verilib.

Məktubda deyilir: “EPP PA üzvlərinin diqqətinə çatdırırıq ki, Azərbaycan 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanatın şərtlərinə tam əməl edir. Bu çərçivədə Azərbaycan ilə Ermənistan arasında yüzlərlə hərbi əsir, girov və cəsədlərin mübadiləsi həyata keçirilib və proses beynəlxalq normalara uyğun şəkildə davam etdirilir.

Lakin müharibəyə son qoyan 10 noyabr Bəyanatından sonra Ermənistandan Azərbaycan ərazilərinə gələrək təxribat-diversiya əməlləri törədən və ələ keçirilən terrorçular müharibə əsirləri hesab oluna bilməz və onların məsələsi müvafiq qanunlar çərçivəsində öz həllini tapacaqdır.

Üstəlik, Azərbaycanın tələblərinə baxmayaraq, Ermənistan tərəfi Birinci Qarabağ müharibəsində əsir və girov götürülmüş 4 mindən çox Azərbaycan vətəndaşının taleyi və onların kütləvi dəfn olunduqları yerlər barədə məlumat verməkdən imtina edir.

Ermənistan vəziyyəti düzgün dəyərləndirməli, özünütəcridə gətirib çıxaran əvvəlki səhvlərini təkrarlamamalıdır. Bu baxımdan beynəlxalq ictimaiyyət üçtərəfli Bəyanatın tam icrasına, bölgədə sülhün və etimadın bərqərar olunmasına və xalqlarımız arasında barışığa dəstək olmalıdır”.

YAP-ın Avropa Xalq Partiyasına ünvanladığı etiraz məktubunda daha sonra qeyd olunur: “Azərbaycan münaqişənin əhatə etdiyi bölgələrdə yaşayan erməni mənşəli vətəndaşlarını özünün siyasi, sosial və iqtisadi məkanına reinteqrasiya etməkdə qərarlıdır və özünün suverenliyi və ərazi bütövlüyü çərçivəsində etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarının bərabər hüquq və azadlıqlarına təminat verir.

Ermənistan işğalının ağır nəticələrini aradan qaldırmaq, bu əraziləri partlamamış sursatlardan təmizləmək, bərpa və yenidənqurma işləri aparmaq çox çətin və böyük resurslar tələb edən işdir. Buna baxmayaraq, Azərbaycan artıq bütün bu işlərə və yüz minlərlə məcburi köçkünün öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli dönüşü üçün şərait yaratmağa başlayıb.

Onu da qeyd etmək lazımdır ki, çoxetnoslu və çoxdinli bir ölkə olaraq özünün mədəni müxtəlifliyi ilə fəxr edən Azərbaycan mənşəyindən asılı olmayaraq, bölgədəki bütün dini və mədəni irsin qorunmasına, bərpasına və istifadəsinə böyük önəm verəcəkdir.

EPP PA üzvlərinə birtərəfli bəyanatlar səsləndirməzdən əvvəl məsələ barəsində daha ətraflı informasiya toplamağı tövsiyə edirik”.

## Milli Məclisdə Gürcüstanın Azərbaycandakı səfiri ilə görüş keçirilib

Fevralın 5-də Milli Məclisin sədri Sahibə Qafarova Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, spiker qonağı salamlayaraq, Azərbaycanın dost və qardaş Gürcüstanla əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib. Qeyd edilib ki, dövlət başçılarının qarşılıqlı səfərləri, aparılan danışıqlar münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Bu gün Azərbaycan və Gürcüstan həyatın ən müxtəlif sahələrində faydalı əməkdaşlıq edirlər. İki ölkə arasında imzalanmış sənədlər əməkdaşlığımızın möhkəm hüquqi bazasını təşkil edir.

Bildirilib ki, siyasi dialoqun yüksək səviyyədə olması iqtisadi sahədə yüksək göstəricilərin əldə edilməsinə zəmin yaradıb. Bu gün iki dost və qonşu ölkə olaraq Azərbaycan və Gürcüstan qlobal layihələrin reallaşmasında, bölgədə rifahın bərqərar olmasında səmərəli fəaliyyət göstərirlər.

Sədr qeyd edib ki, parlamentlər səviyyəsində də münasibətlərin dərinləşməsi ümumi məqsədlərə xidmət edir. Deputatların qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşlərin keçirilməsi tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox əhəmiyyətlidir. “Biz Azərbaycanın apardığı Vətən müharibəsində - 44 günlük savaş dönəmində Gürcüstanın göstərdiyi mövqeyi yüksək qiymətləndiririk. İnanırıq ki, bu münasibətlər gələcəkdə daha da dərinləşəcək”, - deyə spiker bildirib.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze xalqlarımız arasındakı münasibətlərin qədim tarixi olduğunu deyib. Bildirib ki, yüksəksəviyyəli siyasi münasibətlərin mövcudluğu xalqlarımızı bir-birinə daha da yaxınlaşdırıb. İqtisadi, mədəni, humanitar sahələrdə də əməkdaşlığımız günbəgün inkişaf edir. Biz parlamentlər səviyyəsində də əlaqələrimizi intensivləşdirmək niyyətindəyik.

Qonaq Gürcüstan parlamentinin fəaliyyəti haqqında məlumat verərək, deputatların müxtəlif platformalarda görüşlərinin və qarşılıqlı səfərlərinin önəmini vurğulayıb.

Bildirilib ki, Gürcüstan Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib, regionda sülhün və əmin-amanlığın bərqərar olması üçün səylərini əsirgəməyib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər barədə də danışılıb.

## İşğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı məsələləri üzrə işçi qrupunun iclası keçirilib

Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı məsələləri üzrə işçi qrupunun iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin əsas məqsədlərindən biri olan həmin ərazilərə əhalinin qayıdışı ilə bağlı konkret vəzifələr müəyyən etmiş və bu istiqamətdə zəruri tapşırıqlar vermişdir.

AZƏRTAC xəbər verir ki, işçi qrupunun rəhbəri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev dövlət başçısının tapşırıqlarına uyğun olaraq həyata keçirilən işlər haqqında ətraflı məlumat verib.

Daha sonra Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi -Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, kənd təsərrüfatı naziri İnam Kərimov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və digər aidiyyəti dövlət qurumlarının rəhbərlərinin iştirakı ilə işğaldan azad edilmiş ərazilərdə planlaşdırılan fəaliyyətlərə dair geniş müzakirələr aparılıb.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

## Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası növbəti iclasını keçirib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 17 mart tarixli Sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının videokonfrans formatında növbəti iclası keçirilib.



İclasda dövlət başçısının 2017-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı” çərçivəsində 2020-ci il ərzində görülən işlər, əldə edilən nəticələr, qarşıda duran vəzifələr müzakirə edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində 2020-ci il ərzində görülmüş işlər, əldə edilmiş nailiyyətlər barədə məlumat verib. Komissiyanın sədri qeyri-formal məşğulluğun əmək bazarının tənzimlənməsinə, vergi, sosial sığorta və digər məcburi ödənişlərin həyata keçirilməsinə, işçilərin gələcək sosial təminat hüquqlarına malik olmasına ciddi maneə yaratdığını vurğulayıb. O, qeydiyyatsız əmək fəaliyyətinin qarşısının alınması sahəsində son illər dövlət tərəfindən sistemli və məqsədyönlü tədbirlər həyata keçirildiyini qeyd edib. Həmin tədbirlərin vətəndaşların əmək hüquqlarının qorunması, işçilərin maddi, sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyələrinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına xidmət etdiyini bildirib. İclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, Komissiyanın Qanunvericilik və idarəetmə üzrə işçi qrupunun rəhbəri Anar Əliyev “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı” çərçivəsində hazırlanmış qanunvericilik layihələrini diqqətə çatdırıb. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini, Komissiyanın Qeyri-formal məşğulluq nəticəsində yaranan gəlirlərin gizlədilməsinin səbəblərinin araşdırılması üzrə işçi qrupunun rəhbəri İlkin Vəliyev çıxış edərək xidmət (ictimai iaşə) sahəsində qeydiyyatsız əmək fəaliyyətinin qarşısının alınması sahəsində görülmüş tədbirlər, aparılan islahatlar və vergi nəzarəti tədbirləri barədə məlumat verib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və iqtisadiyyat nazirinin müavini Elnur Əliyev çıxış edərək müzakirə olunan məsələlərə münasibət bildiriblər.

“Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”nın icrası ilə əlaqədar dövlət başçısına təqdim ediləcək hesabatın layihəsi müzakirə edilərək qəbul olunub.

Komissiyanın sədri qarşıda duran vəzifələrin icrası, o cümlədən qeyri-formal məşğulluğun xarakterik olduğu sahələr (tikinti, ictimai iaşə, nəqliyyat) üzrə qanunvericilik aktlarının təkmilləşdirilməsi, bu sahələr üzrə nəzarətin, əmək müqaviləsi bağlamağa stimullaşdıran tədbirlərin, müvafiq mövzuda təbliğat-təşviqat məqsədli maarifləndirmə işlərinin gücləndirilməsinə dair tapşırıqlar verib.

## Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması ilə bağlı işçi qrupunun onlayn iclası olub



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə fevralın 4-də Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması ilə əlaqədar müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələrindən ibarət işçi qrupunun onlayn iclası keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazir Anar Kərimov iclasda çıxış edərək dövlət başçısının 3 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, Ordumuzun Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması, Birinci vitse-prezidentin tapşırığına uyğun olaraq, muzeyin konsepsiyasının hazırlanması ilə əlaqədar indiyədək nazirlik tərəfindən həyata keçirilən işlər barədə məlumat verib.

Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin fondunun yaradılması üçün lazımi materialların toplanılmasına başlandığını bildirən nazir artıq vətəndaşlarla yanaşı, dövlət qurumları tərəfindən də müvafiq materialların təhvil verildiyini qeyd edib. Bildirilib ki, muzey 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan xalqının nümayiş etdirdiyi əzmkarlığı, birliyi əbədiləşdirən möhtəşəm kompleks, eyni zamanda xalqımızın qəhrəmanlıq irsini və qazanılmış Qələbəni müasir təqdimat metodları ilə tamaşaçıya çatdıran məkan olacaq. Vətən müharibəsinin gedişini müasir texnologiyalar vasitəsilə canlandıracaq muzey həmçinin ölkənin ən böyük və müasir maarifləndirici, vətənpərvərlik ruhunda tərbiyəedici mərkəzi kimi fəaliyyət göstərək.

Sonra hərb tarixi üzrə ekspert Səbuhi Əhmədov muzeyin konsepsiyasının ilkin layihəsini işçi qrupunun üzvlərinə təqdim edib.

Onlayn iclasda işçi qrupunun üzvləri - Prezident Administrasiyasının Xarici KİV və QHT-lərlə iş sektorunun müdiri Fuad Axundov və Gəncliyin inkişafı məsələləri sektorunun müdiri İrfan Davudov, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, AZƏRTAC-ın İdarə Heyətinin sədr müavini Dağbəyi İsmayılov, təhsil nazirinin müavini Firudin Qurbanov, Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədr müavini Sənan Tapdıqov, Milli Arxiv İdarəsinin rəis müavini Həsən Həsənov, fövqəladə hallar nazirinin müavini Etibar Mirzəyev, nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin zabiti, polkovnik-leytenant Elvin Əzizov muzeyin məzmununun uğurlu alındığını qeyd edib, öz təkliflərini səsləndiriblər.

İclasın sonunda Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması istiqamətində işlərin davam etdiriləcəyi bildirilib.

## Milli Məclisin Gənclər və idman komitəsində idmançılarla növbəti görüş

Fevralın 5-də Milli Məclisin Gənclər və idman komitəsində bir qrup gənc idmançı ilə görüş keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, artıq ənənə halını almış və gənclər günü münasibətilə keçirilmiş görüşdə idmançıların həyat və fəaliyyətləri, qarşılaşdıqları çətinliklər, həmçinin bu il üçün nəzərdə tutulmuş beynəlxalq yarışlarda iştirak məsələləri müzakirə olunub.

Görüşdə Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev dövlət başçısının idmana göstərdiyi diqqət və qayğıdan danışaraq bildirib ki, ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Son illər Azərbaycan bir sıra beynəlxalq səviyyəli idman yarışlarına evsahibliyi etməklə yanaşı, həmin tədbirləri ən yüksək səviyyədə təşkil edən ölkələrdən birinə çevrilib. İdmançılarımızın qazandığı uğurlar, göstərdikləri yüksək nəticələr hamımızı sevindirir.

Söhbət zamanı vitse-spiker 2020-ci ildə hərbi və diplomatik müstəvidə qazandığımız qələbələrin növbəti illərdə də idmançılarımız tərəfindən müxtəlif olimpiadalarda davam etdiriləcəyinə əminliyini bildirib.

Görüşdə iştirak edən idmançılar müxtəlif idman yarışlarında qalib olmaq üçün əllərindən gələni edəcəklərini, şanlı bayrağımızın ucalması, himnimizin səslənməsi üçün var qüvvələri ilə çalışacaqlarını diqqətə çatdırıblar.

Sonda ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edən idmançılar və Vətən müharibəsinin iştirakçıları Milli Məclisin Gənclər və idman komitəsi tərəfindən Fəxri Fərmanla təltif olunublar.



# İlham Əliyevin yeni inkişaf modeli

## Azərbaycanın 2030-cu il hədəf prioritetləri milli yüksəlişin müasir yol xəritəsidir

***Əvvəli 1-ci səh.***

İqtisadi inkişafın birinci mərhələsində Azərbaycan üçün əsas hədəf aqrar sahənin istehsal potensialını artırmaqla həm daxili ərzaq təhlükəsizliyini təmin etmək, həm də kütləvi iş yerlərinin açılması idi. Azərbaycan qarşıya qoyduğu bu hədəfi 2020-ci ilə qədər uğurla reallaşdıra bildi. Belə ki, pandemiya dönəmində bir sıra ölkələrdə məhsul qıtlığı kənd təsərrüfatı məhsullarının qiymətlərinin artımı ilə müşahidə edilsə də, Azərbaycanda kənd təsərrüfatı məhsulları bazarında həm bolluq müşahidə edildi, həm də bir sıra məhsulların qiymətlərində azalma gözə çarpdı.

Ancaq aqrar sahədə innovasiyaların tətbiqi məhsuldarlığı yüksəltsə də, əməyin dəyərini lazımi qədər artırmır. Ona görə də 2021-ci ildən sonra qurulacaq yeni iqtisadi modelin ana xətti qeyri-neft sənayesində istehsal zəncirinin qurulmasından ibarət olacaq. Xüsusən də sənaye parklarının və aqropark kimi müasir sənaye infrastrukturunun qurulması xammal ixracından yarımfabrikat və son məhsul ixracına qədər istehsalı genişləndirməyə imkan verir.

Dünya Bankının araşdırmaları da göstərir ki, istehsal zəncirində iştirakın 1% artırılması, adambaşına düşən gəlirlərin 1% yüksəlməsinə nail olmağa imkan verir. Ümumiyyətlə, bütün postmüharibə iqtisadiyyatlarının tarixinə nəzər saldıqda uğurlu inkişafın məhz fabriklərin yaradılması ilə müşahidə edildiyini görmək olar. Beləliklə, bu, tədricən insan resurslarının həm keyfiyyət, həm də dəyər artımına təsir edir. Başqa sözlə, geyim tikişindən başlanan istehsal tədricən daha dərin elm tutumlu sahələrin yaranmasına və beləliklə də, ixrac səbətinin çeşidi ilə paralel onun dəyərinin də artırılmasına müsbət təsir edir. Dərin istehsal sahələrinin yaradılması isə müxtəlif şəhərlərin daha sürətli inkişafını, orada maliyyə, sığorta, xidmət sektorunun keyfiyyətinin artımını şərtləndirir. Bu da inklüziv cəmiyyət quruculuğu üçün vacibdir.

İnkişaf etmiş ölkələrin iqtisadi modellərinə baxsaq, aydın görərik ki, uğurun əsasını istehsal təşkil edir. İstehsalın genişləndirilməsi, eyni zamanda əmək qüvvəsinin cəlbi üçün ciddi rəqabət mühiti formalaşdırır. Misal üçün, 1920-ci illərdə Henri Ford öz istehsal sahələrində işçilərin əməkhaqqını hiss ediləcək dərəcədə artırırdı. O, bunu çox qazandığı və ya xeyirxah olduğu üçün etmirdi. Həmin dönəmlərdə ABŞ-da sənayeləşmənin sürətlənməsi Ford müəssisələrindən işçi qüvvəsinin rəqiblərə axını ilə müşahidə olunurdu. Buna görə də Henri Ford öz istehsalını qorumaq üçün işçilərə ödənişləri artırmaq məcburiyyətində qalmışdı. Bu mənada yeni iqtisadi modeldə istehsalın genişləndirilməsi, onun intellektual potensialının artırılması şirkətləri təkcə satış bazarı uğrunda deyil, eyni zamanda əmək bazarı uğrunda da rəqabətə sövq edəcək.

### Azərbaycan qlobal dəyər zəncirinə qoşulur

Yeni iqtisadi dönəmdə əsas hədəflərdən biri də investisiyaların regionlara cəlb edilməsidir. Bu da təsadüfi deyil - bu günə qədər Azərbaycan iqtisadiyyatına yatırılan hər 3 manatın 2 manatı Bakı və Abşeron iqtisadi rayonunda qalır, yerdə qalan 1 manat isə regionlara gedir. İnvestisiyanın Bakı və Abşerona yatırılması daxili miqrasiyanı sürətləndirir, nəticədə paytaxtla yarımadanın infrastrukturu həddindən artıq yüklənir. Paralel olaraq paytaxt ilə regionlar arasında iqtisadi inkişafda çox ciddi disbalans yaranır. Eyni zamanda regionlarda bacarıqlı işçi kadrların defisitini əmələ gətirir. İqtisadçı Ruçir Şarmada hesab edir ki, inkişaf etməkdə olan ölkələrdə paytaxtla ikinci şəhərlər arasında əhali sayının nisbəti üçdəbirə bərabər olarsa, bu, gələcəkdə disbalans yarada və iqtisadi inkişafı tıxaya bilər.

Ona görə də Azərbaycan üçün yeni mərhələdə əsas məqsədlərdən biri də regionların iqtisadi inkişafını Bakının inkişaf səviyyəsinə yaxınlaşdırmaqdı. Ümumiyyətlə, Azərbaycanın bütün regionlarının tək ölkə iqtisadiyyatına deyil, ümumilikdə qlobal iqtisadi zəncirə qoşulmaq imkanı mövcuddur.

Burada təkcə regionun spesifik potensialı deyil, ümumilikdə daha geniş mənada qlobal dəyər zəncirində iştirak prioritet olmalıdır. Misal üçün, Mərakeş dövləti Fransanın “Renault” şirkətini, Polşa “Hyundai” şirkətini öz regionuna investisiya yatırmaq üçün cəlb edə bilib. Burada əsas faktor adıçəkilən ölkələrin böyük bazarlara yaxınlığıdır. Azərbaycan regionları da bu nümunədən uğurla istifadə edə bilərlər. Belə ki, Azərbaycan ətrafında 350 milyonluq böyük bazar mövcuddur və bu da xarici investorlara əlverişli bazar imkanı verir. Başqa sözlə, regionlarda sırf xarici bazarlara yönəlik istehsal prosesini təşkil etmək üçün böyük potensial var.

Son dönəmdə dünyaca məşhur sərinləşdirici istehsal edən Transmilli Korporasiyanın 30 mln dollar dəyərində yatırımı Azərbaycanın İsmayıllı bölgəsinə yönəltməsi onu göstərir ki, artıq xarici investorlar ölkəmizin istənilən bölgəsində iştiraka hazırdır. Ümumiyyətlə, Azərbaycanın qeyri-neft sənayesində ilk dəfə hansısa Transmilli Korporasiya regiona investisiya yatırır. Bu faktın özü onu göstərir ki, artıq Azərbaycan yaxın gələcəkdə qlobal dəyər zəncirinə qoşulmaq imkanına malikdir.

### Maksimum fayda - minimum risk

İstənilən iqtisadi islahatların dividendləri ilə yanaşı, ekoloji riskləri də mövcuddur. Risklər birbaşa və dolayı təsirə malikdir. Yəni müəssisənin tikintisi yerləşdiyi ərazinin ekoloji vəziyyətinə birbaşa, onun fəaliyyəti nəticəsində isə dolayı təsiretmə imkanları var. Dayanıqlı inkişafı prioritet elan edən Azərbaycan bu hədəfinə məhz ekoloji təsirləri minimuma endirməklə nail olmağı məqsəd kimi müəyyənləşdirib. Artıq uzun illərdir ki, Azərbaycanda icra edilən meqalayihələr maksimum ekoloji risk əsasında formalaşdırılır.

Misal üçün, Sumqayıt Kimya Sənaye Parkının ərazisində yaradılan bütün istehsal müəssisələri beynəlxalq ekvator prinsipi əsasında layihələndirilib. Yeni mərhələdə isə Azərbaycanda bu prinsiplər əsas olacaq: *ekoloji risklərin minimuma endirilməsi; ekoloji mühitin bərpası; ekoloji mühitə dəyən ziyanın kompensasiyası.*

Eyni zamanda gözləmək olar ki, yaxın gələcəkdə Azərbaycan dünya bankının tətbiq etdiyi ekoloji tələblər əsasında milli tələb bazası formalaşdırsın və bu tələblər maliyyələşdiriləcək biznes layihələri üçün əsas şərt kimi qəbul edilsin. Yəni dövlət ucuz kredit, gömrük və vergi alətləri ilə biznesə dəstək verəcək, paralel olaraq ekoloji normaların bizneslər tərəfindən nəzərə alınmasını əsas şərt kimi müəyyənləşdirəcək.

Ümumiyyətlə, Azərbaycan artıq yeni iqtisadi mərhələyə qədəm qoyur, bu mərhələdə vətəndaşların gəlirlərinin artırılmasına nail olmaqla, bazarda tələb formalaşdırılacaq, bu tələb isə istehsalın genişlənməsi və şaxələnməsi ilə nəticələnəcək. Son nəticədə cəmiyyət-dövlət-biznes üçbucağında əməkdaşlıq dərinləşəcək və bu birlik Azərbaycanın daha sürətli inkişafına müsbət təsir göstərəcək.

***Aqil MƏMMƏDOV,***
***iqtisadçı-ekspert***

# Ən qayğıkeş Prezident

Qarabağ şəhid ailələrinə və əlillərə xüsusi qayğı və diqqətinizi xalq yüksək qiymətləndirir. Çoxları, xüsusən də gənclər bilmirlər ki, Prezident İlham Əliyev bu müqəddəs işə illərlə öncə, Qaradağ rayonundan millət vəkili olandan başlayıb.



Yaratdığı “Qaradağın inkişaf fondu”nun maddi dəstəyi ilə Lökbatan qəsəbəsində Qarabağ şəhid ailələri və əlilləri üçün beşmərtəbəli, beşbloklu bina tikdirilmişdi. Mənzillərə telefon çəkilmiş, mebellə təmin olunmuşdu.

30 iyun 1999-cu il tarixdə Ulu Öndərin iştirak və çıxış etdiyi açılış mərasimində ziyalılar adından mən də çıxış etdim. Bu bina ölkəmizdə Qarabağ şəhid ailələri və əlilləri üçün tikilən ilk bina idi. Az sonra cənab İlham Əliyevin təşəbbüsü ilə 2-ci bina da tikildi.

İndi bütün şəhid ailələri və əlillərin evlə təmin olunması haqqında möhtərəm Prezidentimizin göstərişini eşidəndə, gözlərim önünə keçən əsrin 90-cı illərində, ağır vaxtlarda Qarabağ şəhid ailələri və əlillərinə göstərdiyi qayğı və diqqət gəlir.

Ali Baş Komandanımızın gördüyü, beynəlxalq aləmdə bizə başucalığı gətirən fərəhli işlərindən biri də Sloveniyada xalqımızın igid oğlu, Sloveniya və Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadəyə xatirə muzeyi yaratmağı, muzeyin həyətində qəhrəmanımıza möhtəşəm heykəl ucaltdırmağı, ümumi məzarlıqda Mehdi Hüseynzadə başda olmaqla, o bölgədə alman faşistlərinə qarşı mübarizədə həlak olan döyüşçülərə abidə qoydurmağı, qranit üzərində adlarını, soyadlarını, anadan olduğu və əbədiyyətə qovuşduğu tarixi həkk etdirməyi, adlarını əbədiləşdirməyi olub.

Mən Sloveniyada sanatoriyada müalicə olunanda iki dəfə Mehdi Hüseynzadə xatirə muzeyini və abidəni ziyarət etmişəm. 2011-ci ildə xatirə muzeyinin açılışında Prezidentin iştirakına və vətənpərvərliyinə heyran olmuşam, qürur duymuşam. Mən bu hissi olimpiya oyunlarında dövlət başçımızın idmançılarımızı qələbə və vətənpərvərliyə ruhlandıranda da, qələbə münasibətilə onları doğma balası kimi bağrına basanda da, Vətən müharibəsində qələbə sevincini xalqımıza çatdıranda da, Ulu Öndərin vəsiyyətinin yerinə yetirildiyini dilə gətirəndə də, 30 ildən artıq blokada şəraitində olan Naxçıvana Ermənistan ərazisindən avtomobil və dəmir yolu çəkiləcəyini bəyan edəndə də, Məkkədən gətirdiyi Qurani-Kərimi Ağdam Cümə məscidinə bağışlayanda da, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla paytaxtımızda Zəfər paradı keçirəndə də, Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə Şuşaya gedəndə də, fəxrlə Cıdır düzündə “Əziz Şuşa, sən azadsan!” və “Qarabağ Azərbaycandır!” deyəndə də yaşamışam.

Nə gizlədim, dəfələrlə sevinc göz yaşlarımı saxlaya bilməmişəm. Qarabağı azad gördüyümə görə Yaradana və istəkli Ali Baş Komandanımıza dua oxuyuram. Ədəbiyyat adamı olsam da, Prezidentimizdə olan vətənsevərliyi ifadə etməkdə çətinlik çəkirəm.

Liderimiz ümumxalq məhəbbəti qazanıb, ürəklərdə məskən salıb. Tariximizin qızıl hərflərlə yazılan ən parlaq səhifələrindən biri onun adı ilə bağlıdır.

Arzu edərdim, işğaldan azad edilmiş rayonların hər birində o rayon ərazisində döyüşlərdə şəhid olmuş Vətən oğullarına Sloveniyadakı kimi abidə qoyulsun. Abidənin üzərində şəhid olmuş igidlərimizin adı, soyadı, anadan olduğu və şəhid olduğu il yazılsın. Bu, bir tərəfdən şəhid ailələri üçün təsəlli olardı, digər tərəfdən gələcəkdə bu yerləri ziyarət edən diplomatik korpusun nümayəndələrinin, əcnəbi turistlərin, istirahətə gələnlərin, bizi əvəz edəcək nəsillərin doğma Qarabağı, mədəniyyət paytaxtı elan edilən Şuşanı nəyin bahasına azad etdiyimiz haqqında tam təsəvvürləri yaranardı.

***Qəzənfər PAŞAYEV,***
***Əməkdar elm xadimi,***
***professor***

# Müasir Azərbaycanın gücü

***Əvvəli 1-ci səh.***

Artıq Ümumdünya Səhiyyə Təşkilatı pandemiyaya qarşı mübarizədə “Azərbaycan modeli” haqqında danışır, görülən işlərə yüksək qiymət verir. Bir neçə dəfə isə Azərbaycan hətta nümunəvi ölkə kimi təqdim olunub. Dünyanın aparıcı rəy sorğusu şirkətlərindən olan “Gallup” təşkilatının Azərbaycan vətəndaşları arasında apardığı təhlil-rəy sorğusu zamanı da fikri soruşulan vətəndaşların 86 faizi dövlətin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirib. Qeyd edək ki, bu göstəriciyə görə, Azərbaycan dünyada 4-cü yerdədir: “Bu, özlüyündə bir göstəricidir və onu göstərir ki, biz düzgün yoldayıq, hər zaman vətəndaşlara həqiqəti demişik”.

### Yardımlaşmaq məsuliyyətdir

Prezident müsahibəsində dövlətimizin pandemiya dövründə ehtiyacı olan digər ölkələrə kömək etmək haqqında da məlumat verdi. Azərbaycanın məsuliyyətli ölkə, həmçinin Qoşulmama Hərəkatına rəhbərlik edən dövlət kimi başqalarına yardımları özünə borc bildiyini qeyd etdi. Həqiqətən pandemiya dövründə xüsusilə ağır vəziyyətlə üzləşən elə ölkələr var ki, vətəndaşların gündəlik tələbatlarını ödəməkdə çətinlik çəkirlər. Bu vəziyyətdən çıxmaqda onlara yardım əlinin uzadılması, həmin ölkələrin vətəndaşları şəxsində insanlığın xəstəlikdən, aclıqdan, səfalətdən xilası hər bir məsuliyyətli ölkənin ali missiyasıdır. Azərbaycan da bunu nəzərə alaraq bu dövr ərzində mövcud imkanları daxilində 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərib. Beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verib. Bu məbləğin 5 milyonu təşkilatın pandemiyaya qarşı ümumi tədbirlərinə, 5 milyonu isə Qoşulmama Hərəkatına üzv olan, xüsusilə kasıb ölkələrin yardımına istiqamətləndirilib.

Müsahibədə Azərbaycanın pandemiyaya qarşı mübarizə sahəsində beynəlxalq Zirvə görüşlərinin keçirilməsi təşəbbüslərindən də söhbət açıldı. Dövlət rəhbərimizin irəli sürdüyü bu təşəbbüslərə uyğun olaraq həm Türk Şurasının, həm də Qoşulmama Hərəkatının iki Zirvə görüşü məhz pandemiyaya həsr edilib. Prezident onu da nəzərə çatdırdı ki, bu, bütün dünyada ilk belə təşəbbüs olub və kifayət qədər müsbət nəticələr verib. Ondan sonra Azərbaycan artıq Qoşulmama Hərəkatı üzvlərinin dəstəyi ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinə nail olub. Azərbaycan Prezidenti Qoşulmama Hərəkatının sədri kimi BMT Baş Assambleyasının xüsusi sessiyasındakı çıxışı zamanı bütün ölkələri bu məsələdə həmrəyliyə çağırdığını, qlobal bəlaya qarşı mübarizədə səylərin birləşdirilməsinin, hansısa birtərəfli addımların atılmamasının, zəngin ölkələrin məsuliyyət göstərməsinin, peyvəndin bütün ölkələrin xalqlarına çatmasının vacibliyini qeyd etdiyini xatırlatdı və açıq şəkildə iradlarını bildirdi: “Hətta demişdim ki, kasıb olan ölkələrin vətəndaşları üçün zəngin olan ölkələr o peyvəndi alıb onlara ötürsünlər. Şirkətlərə də çağırışlar etmişdim ki, onlar da bu sahədə qazanc dalınca qaçmasınlar, yəni məsuliyyətli olsunlar. Prinsipcə, mənim bu çağırışlarımı bir çox ölkələr dəstəklədi, amma əfsuslar olsun ki, real həyat bizə tam başqa mənzərə nümayiş etdirir. Burada sözlə əməl arasında böyük bir fərqi görürük”. Təəssüf ki, hazırda peyvəndlərin ədalətsiz bölgüsü halları müşahidə olunur. Prezident müsahibəsində mətbuatda açıqlanan maraqlı bir fakta toxundu. Məsələn, inkişaf etmiş ölkələr dünya əhalisinin 14 faizini təşkil edir. Onlar bu günə qədər dünyada istehsal edilən vaksinlərin 53 faizini veriblər. Hətta inkişaf etmiş ölkələr vaksini öz aralarında da ədalətli şəkildə bölə bilmirlər. Prezident İlham Əliyev qlobal proseslər barədə ən informasiyalı liderlərdən biri kimi bununla bağlı məlumat və rəylərini müsahibəsi zamanı ölkə əhalisi ilə bölüşdü və haqlı suallar qoydu: “Kasıb ölkələr, inkişafda olan ölkələrin vətəndaşları, bəs onlara kim kömək göstərəcək? Bu haqda düşünülmür? Mən inkişaf etmiş bir çox ölkələrin liderlərindən bu günə qədər bu çağırışları eşitməmişəm”.

### Neomüstəmləkəçilik siyasətinin ifşası

Dövlət rəhbərimiz müsahibəsində Vətən müharibəsi zamanı ermənipərəst mövqe tutan, işğalçıları dəstəkləyən, insan haqlarından, demokratiyadan danışan Kanadanın əslində insanlığa münasibətinin necə olduğunu göstərən hamı üçün maraqlı bir fakta da toxundu. Məlum oldu ki, cəmi 38 milyon əhalisi olan Kanada 154 milyon vaksin sifariş verib: “Yəni dörd dəfə çox. Deməli, 120 milyona bu vaksin çatmayacaq. Onlar almayacaqlar, onlar xəstələnəcəklər, öləcəklər. Bunların vecinə deyil. Bunlar ancaq eqoist hisslərə qapılaraq öz maraqlarını təmin etmək istəyirlər. Belə olan halda hansı demokratiyadan söhbət gedə bilər? Hansı ədalətdən, mərhəmətdən, insan haqlarından söhbət gedə bilər?”

Azərbaycan Prezidenti insanlığa bu cür münasibətin dərin köklərinin olduğunu və bu köklərin müstəmləkəçilik dövrünə apardığını da qeyd etdi: “...Biz neomüstəmləkəçilik dövrünü qeyri-rəsmi müşahidə edirik, yaxud da ki, elan edilməmiş müstəmləkəçilik, bunun başqa adı yoxdur. Belə olan halda bu ölkələrin mənəvi haqqı varmı kiməsə nəsə desin, kimisə nədəsə ittiham etsin? Bu, eqoizmdir, vicdansızlıqdır”. Azərbaycan Prezidenti müstəmləkəçilikdən gələn bu cür siyasəti ifşa etdi.

Prezident İlham Əliyev müsahibəsində Azərbaycanda yanvarın 18-dən başlayaraq aparılan peyvəndləmə prosesi barədə də geniş məlumat verdi. Xatırladaq ki, Azərbaycan Cənubi Qafqazda bu prosesə start vermiş ilk ölkədir. Ölkəmizin bu sahədə də tədbirli davranması, bir çox addımları vaxtında atması, həmçinin COVAKS təşəbbüsünün üzvü olması müxtəlif vaksinlərin tez bir zamanda ölkəyə gətirilməsinə imkan yaradır. Azərbaycan artıq 4 milyon doza vaksin sifariş edib. Onların ölkəyə gətirilməsi təmin olunub. Planauyğun şəkildə peyvəndləmə prosesi hazırda ölkəmizdə uğurla davam etdirilməkdədir.

### Erməni faşizminin məhvi

Azərbaycan Prezidenti müsahibəsində 44 günlük Vətən müharibəsi zamanı azad edilmiş torpaqlarımıza səfərlərinin təəssüratlarını da bir daha vətəndaşlarımızla bölüşdü. Erməni vandallarının Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Şuşada illərlə törətdikləri vəhşi əməllərindən danışdı. Viran qoyulan şəhər və kəndlərimizdən, dağıdılan, təhqir edilən məscidlərimizdən, tar-mar edilmiş yurdlarımızdan söhbət açdı. Dağıdıb tökə-tökə, yer üzündə gözünə görünən bütün tikililərə, başqa mədəniyyətlərə aid nümunələrə dağıdıcılıq, saxtakarlıq, mənimsəmək, hər şeyi özününküləşdirmək niyyəti ilə baxaraq hara qədər getmək olar?!

Ermənilər işğal etdikləri torpaqlarımızdakı yüzlərlə mədəniyyət müəssisəsini yerləyeksan ediblər. Mədəniyyət Nazirliyinin açıqladığı faktlara görə, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib.

O cümlədən Cəbrayıl rayonunda VII-XII əsrlərə aid 11 və 15 aşırımlı Xudafərin körpüləri, Kəlbəcər rayonundakı Gəncəsar və Xudavənd məbədləri (XIII əsr), Ağdam rayonunun Xaçın Türbətli kəndindəki məqbərə (XIV əsr), Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu ermənilərin dağıdıcılıq xislətinə məruz qalıb. Məlumat üçün bildirək ki, Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Dağlıq Qarabağ və ətraf 7 rayonda 706-sı dövlət qeydiyyatında olmaqla, 2600-dən çox (2625 ədəd) tarix və mədəniyyət abidəsi var. Dövlət qeydiyyatına alınan abidələrdən 6-sı dünya əhəmiyyətli memarlıq, 5-i dünya əhəmiyyətli arxeoloji, 119-u ölkə əhəmiyyətli memarlıq, 121-i ölkə əhəmiyyətli arxeoloji, 393-ü yerli əhəmiyyətli memarlıq, 23-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə, 22-si yerli əhəmiyyətli arxeoloji abidələr, 17-si dekorativ-tətbiqi sənət nümunələridir. Əlbəttə, bütün dağıntılar məqsədli şəkildə edilib. Bu mənfur millət Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi mirasları viran qoymaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədi güdüb. Bu torpaqlarda bütün milli izlərimizi silməyə çalışıblar.

Erməni vandalizminin, təkcə Azərbaycan xalqına yox, ümumən bəşəriyyətə təhlükə yaradan erməni faşizminin ifşası üçün yerinə yetirilməli vəzifələrə diqqəti yönəldən ölkə rəhbəri dedi: “Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı Qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır. ...Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək”.

Erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi indi dövlətimizin qarşısında duran mühüm problemlərdəndir. Azərbaycan Prezidenti hər zaman, bütün məsələlərdə olduğu kimi bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir. Ölkə rəhbəri müəyyən qurumların rəhbərlərinə iradını bildirdi və bu prosesin xaotik şəkildə deyil, diqqətlə koordinasiya olunmuş tərzdə, vahid mərkəzdən idarə edildiyini vurğuladı. Prezident bu torpaqlarda bütün işlərin ardıcıllıqla həyata keçiriləcəyini, birincisi, keçmiş məcburi köçkünlərin doğma yurdlara qayıdışı üçün ərazilərin minalardan təmizlənəcəyini, erməni vandallarına qarşı beynəlxalq səviyyədə təzminat davasının açılması üçün onların vurduqları ziyanın qiymətləndiriləcəyini, lazımi inventarlaşdırma, pasportlaşdırma işlərinin aparılacağını, əhalinin infrastruktur layihələrinin icra ediləcəyini söylədi. Hazırda bu işlər paralel şəkildə icra olunmaqdadır.

Ölkə rəhbəri Şuşanı ölkəmizin mədəniyyət paytaxtı elan etdiyini xatırlatdı: “Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır. Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar”, - dedi.

Prezident İlham Əliyevin bu müsahibəsində təlqin olunan əsas amil məhz hər kəsə ədalətli münasibətin qorunmasıdır. Bunlar hələ ki, başlanğıcdır. İndi hamı yaxın zamanlarda azad yurdlarımızda yaradacağımız abadlıq mənzərəsi ilə, ümumbəşəri dəyərlərə xidmət amalımızla, regiona sülh, inkişaf, rifah gətirmək əzmimizlə bu torpaqlarda qurulacaq gözəl bir gələcəyin arzusundadır. Azərbaycan bu dəfə də gücünü bütün dünyaya nümayiş etdirəcək.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

İNKİŞAF və RİFAH

# Milli Prioritetlər iqtisadiyyatın dayanıqlı inkişafına və əhalinin sosial rifahının daha da yaxşılaşmasına yönələn strateji sənəddir

*Əvvəli 1-ci səh.*

Bütün bunlar Azərbaycanın regionda iqtisadi rolunu yüksəltmiş, xarici təsirlərə davamlı olmasına və müstəqil dövlət kimi suverenliyini möhkəmlətməsinə zəmin yaratmışdır.

Milli Prioritetlərin əsas məqsədi də məhz dövlətin qüdrətli olması və yüksək rifah cəmiyyətinin formalaşmasıdır. Bunun üçün güclü iqtisadiyyatın olması şərtdir. İndiyədək həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar buna real bünövrə yaratmışdır. Dövlət əhalinin maddi rifahını daha da yaxşılaşdırmaq üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf modelini seçmişdir. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, aparılan islahatların məqsədi Azərbaycan vətəndaşının sosial rifahının yaxşılaşdırılmasına yönəlib. Bunu artıq neçə ildir dövlət büdcəsində gəlirlərin xərclənməsindəki dinamikadan aydın görmək olur.

Milli Prioritetlərin reallaşdırılması da əslində bu məqsədə xidmət edir. Bunun üçün qarşıdakı onillikdə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, məqsədli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" kimi məsələlər hədəf götürülmüşdür.

Sənəddə dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin bütün üzvlərinin sosial rifahı nəzərə alınır. Qarşıya qoyulan hədəfə çatmaq üçün əməkhaqlarının artırılaraq layiqli səviyyəyə çatdırılması, qadınların iqtisadi imkanlara çıxışının yaxşılaşdırılması, muzdla işləyənlərin sayında özəl sektor üzrə işəgötürənlərin payının üstünlük təşkil etməsi, gəlirlərin ədalətli bölünməsinin təmin olunması, eləcə də əhalinin aşağıgəlirli təbəqəsinin sosial-iqtisadi rifahının artırılması prioritet kimi göstərilib. Bununla yanaşı, sənəddə qeyd edilir ki, məqsəd ölkədə əhalinin pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərinin minimum məbləğinin layiqli səviyyəyə çatdırılmasına nail olmaqdır. Sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatının gücləndirilməsi də milli prioritetlər sırasına daxil olan məsələlərdəndir.

Məlumdur ki, müasir dünyada dövlətlərin siyasi çəkisi, beynəlxalq məsələlərdə söz sahibi olması onun iqtisadi inkişafı ilə ölçülür. İqtisadi müstəqilliyi olmayan ölkələrin siyasi müstəqilliyi təhdid altında olur. Bir dövlət digər dövlətə siyasi təsir göstərmək üçün, ilk növbədə, iqtisadi rıçaqlardan istifadə edir. Belə vəziyyət müasir dünya düzənində oturuşmuş hala gəlib. Prezident İlham Əliyev də çıxışlarında dəfələrlə vurğulayıb ki, iqtisadi müstəqilliyimiz bizə müstəqil xarici siyasət aparmağa imkan yaradır. Bu üzdən milli prioritetlərdə iqtisadiyyatın inkişafına xüsusi önəm verilir.

Milli iqtisadiyyatımızın inkişafı dayanıqlı, rəqabətqabiliyyətli iqtisadiyyatdan keçir. Bu cür iqtisadiyyat həmçinin vətəndaşların sosial rifahına təsir göstərən başlıca faktordur. İqtisadiyyatı davamlı və yüksək templə artırmaqla adambaşına düşən milli gəlirin yüksək səviyyəyə qalxmasına nail olmaq mümkündür. Bunun üçün isə ölkədə bazar iqtisadiyyatı ilə bərabər, sahibkarlıq da inkişaf etməlidir. Dövlət bugünədək də sahibkarlığın inkişafına böyük dəstək verib. İndi də qeyri-neft sektorunun inkişafında sahibkarlığın rolunun artmasına əlavə dəstək göstərməyi qarşıya məqsəd qoyub. Özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun təminatında mühüm rol oynaması danılmazdır. Bunun üçün biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsi artırılmalıdır.

Azərbaycan xarici sərmayə qoyuluşunda da MDB məkanında lider dövlətdir. Buna səbəb ölkəmizdə xarici investisiyanın qorunması üçün mükəmməl qanunvericilik bazasının yaradılmasıdır. Mövcud münbit investisiya mühiti və dövlətin bu məsələyə xüsusi qayğı göstərməsi ölkəyə xarici kapitalın axmasını təmin edən başlıca amildir. Milli Prioritetlərdə bu məsələyə də xüsusi önəm verilir. Sənəddə qeyd edilir ki, ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların, o cümlədən infrastruktur sahəsinə investisiyaların cəlb olunması təmin edilməlidir.

Azərbaycan iqtisadiyyatında neft-qaz istehsalı və ixracının birinci yerdə qərarlaşdığı danılmazdır. Bununla yanaşı, dövlətin əsas məqsədlərindən biri iqtisadiyyatın neft amilindən asılılığının aradan qaldırılmasıdır. Bu istiqamətdə son dövrlər bir sıra mühüm islahatlar həyata keçirilir. Nəticədə özəl sektor sürətlə inkişaf edir. Qeyri-neft sənayesi məhsullarının istehsalının 80 faizindən çoxu da bu sahəyə məxsusdur.

Sonda onu qeyd edək ki, Milli Prioritetlərin istiqamətinin müəyyənləşdirilməsi ölkə iqtisadiyyatının inkişafına yeni dinamika verəcək. Həmin sənəddə nəzərdə tutulanların icrası iqtisadiyyatın hərtərəfli və dayanıqlı inkişafını stimullaşdıracaq, vətəndaşların sosial rifahını daha da yaxşılaşdıracaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# Pandemiya dövründə Azərbaycanda neft-qaz hasilatı və ixracı dayanmamışdır

## Əsas layihələr uğurla icra olunmuşdur

*Əvvəli 1-ci səh.*

"Azəri-Çıraq-Günəşli" (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2050-ci ilin əvvəlinədək uzadılması layihəsi çərçivəsində görülən işlərdə ilboyu boşdayanma olmamışdır. "Azəri Mərkəzi Şərqi" adlanan həmin layihənin müfəssəl mühəndis-layihələndirmə işləri ilin sonunda əsasən bitmişdir. Dördüncü rübdə layihəyə aid daha 10 iri avadanlıq yükü Bakıya çatdırılmışdır. "Azəri Mərkəzi Şərqi" platformasının tikintisi qrafikə uyğun gedir.

2020-ci ildə AÇG-dən hasilat dayanmamışdır. "Çıraq" platformasından gündə orta hesabla 34 min 900, "Mərkəzi Azəri"dən 113 min 200, "Qərbi Azəri"dən 118 min 900, "Şərqi Azəri"dən 64 min 200, "Dərinsulu Günəşli"dən 95 min 400 və "Qərbi Çıraq"dan 50 min 400, bu qurğuların hamısından birlikdə 477 min barel neft hasil edilmişdir. AÇG-dən illik hasilat təxminən 175 milyon barel, yəni 23,6 milyon ton olmuşdur.

İl ərzində AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 6 milyon kubmetr, ümumilikdə isə 2,2 milyard kubmetr səmt qazı verilmişdir. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən laylara vurulmuşdur.

Keçən il Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin əməliyyat xərclərinə təqribən 111 milyon dollar, əsaslı xərclərinə isə təqribən 29 milyon dollar vəsait sərf olunmuşdur.

Xatırladaq ki, 1768 kilometr uzunluğunda olan bu kəmər 2006-cı ilin iyun ayında istismara veriləndən bəri ümumilikdə 475 milyon tondan artıq (3,57 milyard barel) xam neft nəql etmişdir. Bu neft həcmləri Ceyhanda 4659 tankerə yüklənərək dünya bazarlarına göndərilmişdir.

Ötən il BTC vasitəsilə 27,8 milyon tondan artıq (təqribən 211 milyon barel) xam neft və kondensat ixrac olunmuşdur. Kəmərin gətirdiyi karbohidrogenlər Ceyhanda 278 tankerə vurulmuşdur.

Hazırda BTC əsasən Xəzərin Azərbaycan sektorundan hasil olunan AÇG neftini və "Şahdəniz" kondensatını daşıyır. Bundan əlavə, kəmər vasitəsilə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti də nəql olunur.

İl ərzində "Şahdəniz" yatağından da hasilat dayanmamışdır və Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC-ə), Türkiyə (BOTAŞ-a) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə qaz çatdırılmışdır.

Dekabrın 31-də "Şahdəniz"dən ilk dəfə olaraq Avropaya yeni "Cənub qaz dəhlizi" vasitəsilə kommersiya qaz nəqli başlanmışdır. Beləliklə, "Şahdəniz" Avropanın enerji bazarını şaxələndirəcək və onun enerji təhlükəsizliyini gücləndirəcək yeni enerji təchizatı mənbəyinə çevrilmişdir.

2020-ci ildə "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformaları birlikdə yataqdan təqribən 18,1 milyard standart kubmetr qaz və 3,6 milyon ton (29 milyon barel) kondensat hasil etmişlər. Mövcud "Şahdəniz" qurğularının qaz hasilatı gücü hazırda gündə 56 milyon (ildə 20 milyarddan artıq) standart kubmetrdir.

"Şahdəniz"də qazma işləri hasilatın planlaşdırılan ən yüksək sabit səviyyəsinə nail olunana qədər davam edəcək.

Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) 2020-ci il ərzində gündəlik orta ötürücülük gücü 33,8 milyon kubmetr olmuşdur. Qeyd edək ki, CQBK 2006-cı ilin sonlarında istismara verilmişdir, Azərbaycan, Gürcüstan və Türkiyəyə "Şahdəniz" qazını çatdırır. Genişləndirilmiş CQBK isə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlamışdır.

Hazırda BP-nin əməliyyatçılığı ilə Xəzərin Azərbaycan sektorunda bir sıra geoloji kəşfiyyat işləri də aparılır. "Şəfəq-Asiman" blokunda ilk kəşfiyyat quyusunun qazılmasına 2020-ci ilin yanvarında start verilmişdir. Quyunun qazma işləri artıq 5305 metr dərinliyə çatmışdır və hazırda davam edir.

D230 blokunda 2019-cu ilin dekabr ayında başlanmış üçölçülü seysmik tədqiqat proqramı 2020-ci il mart ayının 14-də yekunlaşmışdır. Seysmik məlumatların ilkin mərhələsinin emalı prosesi iyun ayında, tam həcminin emalı isə üçüncü rübdə sona çatdırılmışdır.

Abşeron yarımadasının dayazsulu hissəsi üzrə HPBS ərazisində seçilmiş yerlərdə ilk kəşfiyyat quyusunun qazılması işlərinin planlaşdırılması davam edir. Quyunun qazılmasına bu məqsədlə seçilmiş qazma qurğusu üzərində aparılan işlər tamamlandıqdan sonra başlamaq nəzərdə tutulur.

BP eləcə də öz işçi heyəti haqqında məlumat verib. 2020-ci ilin sonunda şirkətdə işləyən Azərbaycan vətəndaşlarının sayı 2442 nəfər olub. Buraya müddətli müqavilə əsasında çalışan işçilər də daxildir. 2018-ci ilin ortalarından BP-nin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edir. İxtisası olmayan işçilərin isə hamısı yerli vətəndaşlardır.

BP və tərəfdaşları mühüm sosial investisiya layihələri də həyata keçirirlər. Bu layihələrə təhsil proqramları, icmalarda sosial infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinə çıxışın təmin edilməsi və təlim vasitəsilə yerli müəssisələrə kömək, mədəni irs və idmanın inkişafına dəstək və s. daxildir.

2020-ci ildə BP və onun əməliyyatçı olduğu birgə layihələrdəki tərəfdaşları belə sosial investisiya layihələrinə Azərbaycanda 3,2 milyon dollar xərcləmişlər. Bu da şirkətin öz ohdəliklərinə sadiq qaldığını, Azərbaycanla hələ uzun illər birlikdə çalışmaq məqsədini, eləcə də, ümumiyyətlə, ölkəmizin mükəmməl əməkdaşlıq və tərəfdaşlıq formatı yaratdığını bir daha təsdiqləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# 2020-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun şəkildə pensiyalar indeksləşdirilərək 11,4 faiz artırılır

Prezident İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 2021-ci il 5 fevral tarixli Sərəncamı ölkədə sosial müdafiə tədbirlərinin gücləndirilməsi, pensiyaçıların rifahının yaxşılaşdırılması istiqamətində növbəti addımdır.

AZƏRTAC xəbər verir ki, sərəncamla bağlı görüləcək işlərə dair keçirilən mətbuat konfransında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov bildirib ki, 2020-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun şəkildə pensiyalar indeksləşdirilərək 11,4 faiz artırılır.

Fond sədri vurğulayıb ki, Prezident İlham Əliyevin uğurlu sosial siyasəti vətəndaş rifahının təminatı istiqamətində ardıcıl addımların atılmasını təmin edir. 2020-ci ildə də pensiya, Prezident təqaüdü və müavinət, ünvanlı sosial yardım üzrə ödənişlərə əvvəlki ilə nisbətən 20 faiz və ya 1 milyard manat çox olmaqla, 5 milyard 743 milyon manat vəsait yönəldildi. Minimum və orta pensiyanın alıcılıq qabiliyyəti indeksinə görə, Azərbaycan MDB məkanında liderliyini qoruyub saxladı.

Dövlət başçısının fərmanları ilə sosial ödənişlərdə artım bu ilin əvvəlindən davam etdirildi. Prezident təqaüdlərinin məbləği şəhid ailələri üçün 66,7 faiz, Azərbaycanın Milli Qəhrəmanı üçün 20 faiz, İkinci Dünya müharibəsi iştirakçıları üçün 100 faiz, müharibə və 20 Yanvar əlilləri, müharibə əlillərinə bərabər tutulanlar üçün 50 faizdən çox artırıldı, Vətən Müharibəsi Qəhrəmanı üçün Prezidentin aylıq təqaüdü (2000 manat) təsis olundu.

H.Məmişov qeyd edib ki, pensiyaların növbəti artımı, ümumilikdə, 1 milyon 140 min pensiyaçını və ya pensiyaçıların 93 faizini əhatə edir. Digər pensiyaçılar isə xüsusi şərtlər əsasında pensiya təyin olunmuş şəxslərdir. Artım 2021-ci ilin 1 yanvar tarixindən tətbiq olunacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birgə veriləcək. Pensiyaların indeksasiya edilərək artırılması üçün il ərzində əlavə olaraq 441 milyon manat yönəldiləcək.

Dövlət başçısının yeni sərəncamı ilə fərdi hesabların sığorta hissəsindəki pensiya kapitalı da istehlak qiymətləri indeksinin 2020-ci il üzrə illik səviyyəsinə uyğun səviyyədə indeksləşdirilərək yanvarın 1-dən 2,8 faiz artırılır. Bu da əmək müqaviləsi ilə çalışaraq sosial sığorta sistemində iştirak edən şəxslərin mənafeyinə xidmət edir və onların fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay əməkhaqlarından sosial sığorta ayırmaları nəticəsində deyil, həmçinin hər il dövlət tərəfindən indeksləşdirilərək artırıldığını da göstərir.

DSMF-nin sədri pensiya sahəsində aparılan islahatlar, bu il ərzində görüləcək işlər barədə də məlumat verib və jurnalistlərin suallarını cavablandırıb.

# 2500 şəhid ailəsi üzvü, qazi, erməni terrorundan zərərçəkən şəxs aktiv məşğulluq proqramları ilə əhatə olunub

**Tarixi zəfərimizlə başa çatan Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın ailələrinin, bu müharibənin qazilərinin, erməni terrorundan zərər çəkən şəxslərin aktiv məşğulluq proqramları çərçivəsində dəstəklə təminatı işləri davam edir.**




Müharibədən sonrakı dövrdə bu kateqoriyalardan olan 2500 şəxs (o cümlədən 1200-ə yaxın şəhid ailəsi üzvü) aktiv məşğulluq proqramları ilə əhatə olunub. Onlardan 2200-ü özünüməşğulluq proqramına cəlb edilib. Onlar seçdikləri iqtisadi fəaliyyət növləri üzrə kiçik təsərrüfat və müəssisələrini qurmaları üçün aktivlərlə təmin edilirlər. 250-dək şəxsin isə ödənişli ictimai işlər, digərləri əməkhaqlarının birgə maliyyələşdirilməsi proqramları çərçivəsində məşğulluq məsələləri operativ həll olunub.

# "Postpandemiya dövründə vergi sistemi" mövzusunda konfrans keçiriləcək

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən fevralın 12-də "Postpandemiya dövründə vergi sistemi" mövzusunda sahibkarların iştirakı ilə videoformatda konfrans keçiriləcək.**

Xidmətdən AZƏRTAC-a bildirilib ki, konfransda pandemiyanın sahibkarlıq subyektlərinə təsiri və postpandemiya dövründə vergi sistemi üçün çağırışların müzakirə edilməsi nəzərdə tutulur. Sahibkarlıq subyektlərindən konfrans zamanı müzakirə üçün vergi sahəsində qarşılaşdıqları məsələlər barədə, həmçinin vergi qanunvericiliyinə dair suallarını və qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərini "forum@taxes.gov.az" elektron poçt ünvanına göndərmələri tövsiyə olunur.

# Su təminatı yaxşılaşdıqca məhsuldarlıq yüksəlir

**Məlumdur ki, kənd təsərrüfatı məhsullarının istehsalında yüksək nəticələrin əldə olunmasında suvarma suyu böyük əhəmiyyət daşıyır. Odur ki, son illər ölkəmizdə bu sahədə müsbət irəliləyişlərə nail olunması üçün çoxsaylı tədbirlər reallaşdırılır.**

Bu sırada Prezident İlham Əliyevin "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" müvafiq Sərəncamını göstərmək olar.

Sərəncamdan irəli gələn vəzifələr digər rayonlarda olduğu kimi, Samuxda da uğurla həyata keçirilir. Öncə qeyd edək ki, Samux Suvarma Sistemləri İdarəsi rayonun 26660 hektar suvarılan torpaqlarına xidmət edir. İdarənin balansında 539 subartezian quyusu, 25 nasos stansiyası, 28 maşın və mexanizm var ki, onların da hamısı işlək vəziyyətdədir. Əkin sahələrinin suvarılması üçün uzunluğu 726,5 kilometr olan təsərrüfatdaxili və təsərrüfatlararası kanallar mövcuddur. Bunun 3 kilometri suötürücü kanal və 63-ü hidrotexniki qurğu, 39-u körpü-keçid, 61-i suölçən qurğu, 14,5 kilometri drenaj kanalıdır. İdarənin inşaat briqadası kanallarda suyun maneəsiz ötürülməsi üçün lildən, kolkosdan təmizlənməsini, eləcə də boru xətlərinin təmiri və s. işləri həyata keçirir.

İdarənin rəisi Gülağa Bağırov deyir ki, əvvəlki illərdə olduğu kimi, keçən il də suvarma suyu ilə təminatda heç bir problem yaşanmamışdır: "Bunun başlıca səbəbi əkin sahələrini su ilə təmin edən mənbələrin diqqət mərkəzində saxlanılmasıdır. Məhz bunun nəticəsidir ki, keçən il 370 nasos, 36 elektrik avadanlığı təmir edilmiş, torpaqların suvarılması üçün kanallarda 769 min kubmetr lildən təmizləmə, 205 min kubmetr sahilbərkitmə işləri görülmüşdür. Kanallarda 26 hidrotexniki qurğu, 20 hidropostlar təmir olunmuşdur. İl ərzində Gəncə çayında 18 min, rayon ərazisindən keçən Qabırrı çayında 20 min, Qoşqar çayında 12 min kubmetr əlavə sahilbərkitmə işləri görülmüşdür. Rayonun Qaraağaclı qəsəbəsində su-nasos stansiyası yenidən qurulmuşdur. Burada əlavə nasos quraşdırılmış, 2 kilometr uzunluğunda 220 millimetrlik boru ilə su xətti çəkilmişdir. Bununla da əlavə olaraq 100 hektar sahənin suvarılması təmin edilmişdir".

Məlum olduğu kimi, hər il rayon ərazisində sel suları bir sıra problemlər yaradır. Bunu nəzərə alan idarənin kollektivi Gəncə, Qabırrı və Qoşqar çaylarında 185 min kubmetr torpaq işləri görmüşdür. Bundan başqa, Dinaraj və Xan-arx kanallarına beton üz çəkilməsi işlərinə başlanılmışdır. Qısa vaxtda 3 kilometr sahədə betonlama işləri başa çatdırılmışdır. Hazırda bu işlər davam etdirlir.

Keçən il əkin sahələrinin suvarılmasının yaxşılaşdırılması üçün idarənin balansında olan 4 subartezian quyusunda yeni kalon da qazılmışdır. Eyni zamanda əkin sahələrinin suvarılmasını yaxşılaşdırmaq və suvarma suyunun maneəsiz axıdılması üçün təsərrüfatdaxili kanalların təmiz saxlanması diqqət mərkəzində saxlanılmışdır. Bu məqsədlə 327 kilometr hissədə lildən təmizləmə işləri görülmüş və nəticədə fermerlər əkin sahələrinin suvarma suyu ilə təminatında heç bir problemlə üzləşməmişlər.

Hacallı kəndində fermer təsərrüfatı yaradan Yunis Əsgərov hər il 20 hektar əkin sahəsində taxıl, yonca və digər bostan bitkiləri yetişdirməklə yanaşı, çoxlu qazanc əldə edir. Deyir ki, əvvəllər su problemi olsa da, son illər bunu hiss etmir. Su təminatında heç bir problemin olmaması məhsuldarlığa da müsbət təsir göstərir.

Lək kəndinin sakini, fermer Mehman Əliyev də ona məxsus əkin sahələrinin suvarma suyu ilə təminatında heç bir çətinliyin olmadığını bildirir: "18 hektar əkin sahəmiz var. Hər il həmin sahədə taxıl, günəbaxan və yonca bitkisi yetişdirirəm. Suyun bol olması nəticəsində məhsuldarlıq ildən-ilə artır".

Sarıqaya kəndinin sakini, fermer Nuru Mustafayev də əkin sahələrinin suvarma suyu ilə təminatından razıdır: "Su təminatının yaxşı olması nəticəsində son bir neçə ildə əkin sahəsini xeyli artırmışam. Bir neçə il əvvəl cəmi 5 hektar əkin sahəm olduğu halda, indi bu rəqəm 15 hektardır".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Ötən il 237450 daşınmaz əmlak üzərində mülkiyyət hüququ qeydiyyata alınıb

**2020-ci il ərzində 237.450 daşınmaz əmlakın qeydiyyatı aparılıb. Bunun 63.247-si (26,6 faizi) ilkin, 174.203-ü (73,4 faizi) isə təkrar qeydiyyatın payına düşür.**

Mülkiyyət hüquqlarının qeydiyyatı aparılan əmlaklardan 35.775-i fərdi yaşayış və bağ evi, 74.533-ü mənzil, 118.534-ü torpaq sahəsi, 2.543-ü qeyri-yaşayış binası, 5.368-i qeyri-yaşayış sahəsi, 637-si əmlak kompleksi, 59-u çoxmərtəbəli yaşayış binası, 1-i isə çoxillik əkmədir. İlkin qeydiyyatın 36.682-si Bakı şəhərinin, 26.565-i isə regionların payına düşür. 2020-ci il ərzində 34.061 mənzil üzərində mülkiyyət hüququ ilkin dövlət qeydiyyatına alınıb. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə üzərində hüquqların ilkin olaraq qeydiyyata alındığı mənzillərin sayı 7,8 faiz artıb. Keçən il 199.637 daşınmaz əmlakın texniki inventarlaşdırılması aparılıb və texniki pasportu tərtib edilib. Bundan başqa, hüquqi və fiziki şəxslərə daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair 262.939 arayış (Forma-1) verilib. 2020-ci il ərzində 32.693 ipoteka müqaviləsi qeydiyyata alınıb.

Ötən il həmçinin 27 səyyar qeydiyyat kampaniyası təşkil edilib.

# ADA Universitetində Lütfi Zadənin 100 illik yubileyi münasibətilə onlayn elmi mühazirə keçirilib





ADA Universitetində dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin və qeyri-səlis məntiqin banisi Lütfi Zadənin 100 illik yubileyi münasibətilə "Elm və Texnologiyada yeni trendlər" mövzusunda onlayn mühazirə keçirilib.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, rektor Hafiz Paşayev mühazirədə iştirak edən yüz nəfərdən çox tələbə və elmi ictimaiyyət nümayəndələrini salamlayıb. Rektor H.Paşayev Lütfi Zadənin 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı sərəncamı xatırladıb. Gəncləri Lütfi Zadə irsini dərindən öyrənməyə səsləyən rektor H.Paşayev ADA Universitetində görkəmli elm xadiminin adına təqaüd təsis edildiyini və indiyədək 57 tələbənin bu təqaüddən yararlandığını bildirib.

Professor Rafiq Əliyev elmi sələfi Lütfi Zadə ilə birlikdə yazdığı və alimin ikinci kitabı olan "Qeyri-səlis məntiq - nəzəriyyə və tətbiqetmələr" əsərindən bəhs edib. Professor R.Əliyev bildirib ki, Lütfi Zadənin dünya elmi ictimaiyyətinə təqdim etdiyi və alimin soyadını daşıyan "Z-çevirmə" nəzəriyyəsi müasir rəqəmsal idarəetmə, informasiya və kommunikasiya sistemlərinin əsasını təşkil edir.

Mühazirənin əsas çıxışçılarından Merilend Universitetinin (ABŞ) professoru, akademik Roald Saqdeyev qeyd edib ki, Lütfi Zadənin irəli sürdüyü inqilabi nəzəriyyə riyaziyyat və kibernetika sahəsində yeni mərhələnin əsasını qoydu. Qeyri-səlis məntiq nəzəriyyəsi mücərrədlik və reallıq arasında əlaqə yaratdı, informasiyanın mənasını təsvir etməyi təmin etdi.

Sonda çıxışçılar mühazirə iştirakçılarının suallarını cavablandırıblar.

# DİN və Baş Prokurorluq vətəndaşların işğaldan azad edilmiş ərazilərə icazəsiz keçmələri ilə bağlı birgə məlumat yayıb

Daxili İşlər Nazirliyi və Baş Prokurorluq vətəndaşların işğaldan azad edilmiş ərazilərə icazəsiz və nəzarət postlarından kənar yollarla keçmələri halları ilə bağlı məlumat yayıb.

Hər iki qurumun Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, işğaldan azad edilmiş ərazilərə mülki şəxslərin müvafiq icazə almadan, eləcə də nəzarət postlarından kənar yollarla keçmələrinin onların həyat və sağlamlıqları üçün ciddi təhlükə olması və buna görə də belə hərəkətlərdən çəkinmələri barədə dəfələrlə xəbərdarlıqlar edilib. Lakin buna baxmayaraq, hələ də ayrı-ayrı şəxslərin işğaldan azad olunmuş, lakin minalardan tam təmizlənməmiş ərazilərə öz həyatlarını təhlükə qarşısında qoyaraq polis postlarından kənar yollarla daxil olmaları barədə məlumatlar əldə edilməkdədir.

Belə məlumatların yoxlanılması və bu cür təhlükəli halların qarşısının vaxtında alınması məqsədilə fevralın 4-də Füzuli rayonu ərazisində daxili işlər orqanlarının əməkdaşları tərəfindən qabaqlayıcı profilaktik tədbirlər keçirilib. Nəticədə əraziyə qanunsuz yollarla keçmiş 7 nəfər aşkarlanaraq saxlanılıb.

Həmin şəxslərin əməllərinə hüquqi qiymət verilməsi üçün barələrində toplanmış materiallarla birlikdə Füzuli Rayon Məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə onlardan 6 nəfəri barəsində 30 sutka inzibati qaydada həbs, 1 nəfər barəsində isə 150 manat məbləğində cərimə tətbiq olunub.

Hazırda müvafiq araşdırmalar aparılır.

"Bir daha vətəndaşlarımızı həyat və sağlamlıqlarını təhlükədə qoyaraq qanunsuz yollarla işğaldan azad edilmiş ərazilərə getməməyə, belə səfərlərdən çəkinməyə çağırırıq", - deyə birgə məlumatda qeyd olunub.

# Baş Prokurorluq Vətən müharibəsi ilə bağlı mövzularda həssaslıq göstərilməsi barədə vətəndaşlara müraciət edib

Vətən müharibəsi ilə bağlı mövzulara münasibətdə həssaslıq nümayiş etdirilməsi, yayılmış informasiyaların düzgünlüyünün yoxlanılması ilə bağlı dəfələrlə tövsiyələr verilməsinə baxmayaraq, təəssüf ki, bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçiləri tərəfindən süni ajiotaj yaratmaq məqsədilə məlumatın dəqiqliyi yoxlanılmadan informasiyaların ictimailəşdirilməsi hallarına rast gəlinir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş Prokurorluğunda aparılmış araşdırmalarla Rüstəmova Əfsanə Süleyman qızının "Facebook" sosial şəbəkəsində özünə məxsus səhifə vasitəsilə iki övladının Vətən müharibəsində itkin düşdüyünü bildirən Rəna Kazımova adlı qadının videogörüntülərini ictimailəşdirməsi, övladlarından xəbər ala bilmədiyini diqqətə çatdıran həmin qadına kömək göstərilməsi ilə bağlı çağırış etməsi müəyyənləşdirilib.

Əfsanə Rüstəmova tərəfindən yerləşdirilmiş məlumatlar yoxlanılarkən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunun müddəalarının və inzibati xətalar haqqında qanunvericiliyinin tələblərinin pozulması aşkarlanıb.

Faktla əlaqədar Əfsanə Rüstəmova Baş Prokurorluğa dəvət edilib. Ona ictimai rəyi çaşdırmaq, sensasiya naminə dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmaq məqsədi güdməklə konkret faktlara əsaslanmayan məlumatların qanunsuz olaraq yayılmasını davam etdirəcəyi təqdirdə "Prokurorluq haqqında" qanunun tələblərinə müvafiq olaraq barəsində cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlər görüləcəyi barədə rəsmi xəbərdarlıq edilib.

"Vətəndaşlarımızdan və kütləvi informasiya vasitələrindən yaranmış hazırkı həssas vəziyyətdə maksimum məsuliyyətli olmaq və dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərmək tələb olunmaqla bir daha nəzərə çatdırılır ki, ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və bu qəbildən olan informasiyaların qəsdən yayılmasını həyata keçirən kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlər görüləcək", - deyə məlumatda bildirilib.

# Gənc alimin uğur ili

**Respublikamızda həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq gənc nəsil cəmiyyətin aparıcı qüvvəsinə çevrilib. Elə bir fəaliyyət sahəsi yoxdur ki, orada gənclər fəal olmasınlar.**




Elm sahəsini seçərək bu yolda inamla addımlayan uğurlu gənclərimizdən biri də Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Günel Məliklidir.

G.Məlikli eyni zamanda Bakı Dövlət Universitetinin Politologiya və sosiologiya kafedrasının müəllimi, Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının professoru vəzifəsində çalışaraq dövlət siyasətini həm təbliğ, həm də tədris edir.

Xatırladaq ki, 2010-cu ildə Bakı Dövlət Universitetinin Politologiya ixtisası üzrə bakalavr pilləsini, 2011-ci ildə V.N.Karazin adına Xarkov Dövlət Universitetində "Milli təhlükəsizlik və siyasi strategiya" ixtisası üzrə magistr pilləsini fərqlənmə diplomu ilə bitirən G.Məlikli 2011-ci ildə Bakı Dövlət Universitetinin Politologiya və sosiologiya kafedrasında "siyasi nəzəriyyə" ixtisası üzrə əyani doktoranturaya qəbul olub.

Hələ məktəb illərindən biliyi və savadı ilə seçilən gənc alim elm sahəsindəki nailiyyətlərinə görə indiyə qədər xeyli sayda təltiflərə, diplomlara layiq görülüb. Belə ki, 2006-cı ildə yüksək intellektual, zehni qabiliyyəti və elmi biliklərinə görə Təhsil Nazirliyi tərəfindən fəxri fərmana layiq görülən G.Məlikli 2008-ci ildə Beynəlxalq Respublikaçılar İnstitutunda "Liderlik", "Təşkilatı quruculuq", "Strategiya" üzrə təlim, 2009-cu ildə isə "Siyasi biliklər" olimpiadası, "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda məqalə müsabiqəsinin qalibi, elə həmin il BDU-da "İlin tələbəsi" olub. O, 2012-ci ildə "İrəli" ictimai Birliyi "Liderlik Forumu"nun fəxri üzvü, Doktorant və Gənc Tədqiqatçilarin XVII Respublika elmi konfransında birinci yeri tutub, Praqa şəhərində II Beynəlxalq elmi-praktik konferensiyası proqramının qalibi olub. 2012-2014-cü illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsində, 2012-2016-cı illərdə Azərbaycan Milli Məclisinin Sosial siyasət komitəsində "Azərbaycan Respublikasının dövlət təhlükəsizliyində sosial siyasətin yeri və rolu" dissertasiya işi üzrə tədqiqat işləri aparıb. Doktorluq işi ilə bağlı Milli Məclis Aparatının Analitik və informasiya şöbəsində dissertasiya işinə dair tədqiqat aparıb. 2019-cu il elm günü ilə əlaqədar AMEA-da "Gənc qadınlar elmdə" müsabiqəsində qalib olub.

Fəlsəfə doktoru gənc yaşında əldə etdiyi bütün uğurların açarını əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan düzgün gənclər siyasətində görür. Onun sözlərinə görə, bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev hər zaman gənc nəslin fəallığının artırılmasına diqqətlə yanaşır.

G.Məlikli deyir ki, elmi biliyi, savadı, təcrübəsi, ən əsası da zəhmətkeşliyi ilə və öz üzərində daim işlədiyinə görə bütün bu nailiyyətləri qazanmağı bacarıb: "Təbii ki, bunun arxasında yuxusuz gecələr, istirahətə az vaxt ayırmaq, gənclik əyləncələrindən, sosial şəbəkələrdən uzaq durmaq da var. Amma zamanımın böyük əksəriyyətini elmi fəaliyyətimə ayırıram ki, gənclik illərimi bada verməyim".

Və elə gənc alim ötən il də zamanının böyük qismini elmə, biliyə yönəltdiyi üçün zəhmətinin mükafatını qazanıb. O, 2020-ci ildə elm sahəsində qazandığı uğurlara görə 2 Fevral - Azərbaycan Gənclər Günü çərçivəsində Gənclər və İdman Nazirliyi tərəfindən Gənclər Mükafatına layiq görülərək diplomla təltif edilib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Ölkənin ən böyük yarımstansiyası yenidən qurulur

"AzərEnerji" ölkənin ən böyük və birnömrəli strateji əhəmiyyətli yarımstansiyası hesab olunan və 36 il əvvəl tikildiyindən istismar müddətini başa vuran 500/330/220 kilovoltluq "Abşeron" yarımstansiyasını yenidən qurur.

"AzərEnerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, bir neçə ay əvvəl başlanan yenidənqurma işləri nəticəsində "Abşeron" yarımstansiyasının 500, 330 və 220 kilovoltluq açıq paylayıcı qurğularında avadanlıqlar yenilənməklə yanaşı, paylayıcı qurğuların ərazisi genişləndirilib. Tikintisi nəzərdə tutulan Azərbaycan və Rusiya enerji sistemlərini əlaqələndirən ikinci 330 kV-luq "Dərbənd" Hava Xəttinin yuvası quraşdırılıb. Ərazidə müasir tipli rəqəmsal panellər, mikroprosessor tipli rele mühafizəsi, həmçinin idarəetmə qurğuları və sabit cərəyan qurğuları ilə təchiz olunan yeni idarəetmə binası tikilib. Hazırda avadanlıqların montaj işləri aparılır. Burada məsafədən idarə olunan SCADA dispetçer sistemi, yeni layihə əsasında əks-qəza avtomatikası və yanğınsöndürmə sistemi yaradılır. Yarımstansiyaya 3 km məsafədə yeni asfalt yol çəkilir.

Qeyd edək ki, bütövlükdə, Bakı və Abşeron yarımadasını elektrik enerjisi ilə təchiz edən 3 ədəd 220 kilovoltluq "Xırdalan", "Müşfiq" və "Hövsan" yarımstansiyaları məhz "Abşeron" yarımstansiyasından qidalanır.

Eyni zamanda Mingəçevir və Şirvan şəhərlərindəki elektrik stansiyalarından gələn 500 və 330 kilovoltluq hava xətləri birbaşa "Abşeron" yarımstansiyasına daxil olur və strateji əhəmiyyətli yarımstansiya "Sumqayıt" Elektrik Stansiyası, "Yaşma", "Ağsu" və "Qəbələ" yarımstansiyalarını da əlaqələndirir. "Abşeron" yarımstansiyasında yenidənqurma işlərinin cari ilin may ayınadək başa çatdırılması nəzərdə tutulur.


## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Samur-Abşeron Kanalının İstismarı İdarəsi büdcə vəsaiti hesabına elektron satınalma vasitəsilə nəqliyyat vasitələrinin və mexanizmlərin ehtiyat hissələrinin satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə), keyfiyyət uyğunluğuna dair göstəricilər (mal-materialların keyfiyyət zəmanəti və digər standartlara dair təsdiqedici sənədlər), alınması nəzərdə tutulan mal-materialların tələb olunan vaxtda təhvil verilməsi (sifarişçinin yazılı sifarişindən sonra 15 bank günü müddətində) və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı **300** manatdır.

**Təşkilat: AZƏRBAYCAN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ SAMUR-ABŞERON KANALININ İSTİSMARI İDARƏSİ**
**VÖEN: 3100176751**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ 01360100000000003944**
**S.W. I. F. T. BIK: CTREAZ 22**
**H/h: AZ34CTRE00000000000002356803**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqını təsdiq edən sənəd;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 mart 2021-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **11 mart 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **12 mart 2021-ci il saat 16:30-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Samur-Abşeron Kanalının İstismarı İdarəsi büdcə vəsaiti hesabına elektron satınalma vasitəsilə tikinti materiallarının satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə), keyfiyyət uyğunluğuna dair göstəricilər (mal-materialların keyfiyyət zəmanəti və digər standartlara dair təsdiqedici sənədlər), alınması nəzərdə tutulan mal-materialların tələb olunan vaxtda təhvil verilməsi (sifarişçinin yazılı sifarişindən sonra 15 bank günü müddətində) və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı **300** manatdır.

**Təşkilat: AZƏRBAYCAN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ SAMUR-ABŞERON KANALININ İSTİSMARI İDARƏSİ**
**VÖEN: 3100176751**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ 01360100000000003944**
**S.W. I. F. T. BIK: CTREAZ 22**
**H/h: AZ34CTRE00000000000002356803**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqını təsdiq edən sənəd;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 mart 2021-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **11 mart 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **12 mart 2021-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Samur-Abşeron Kanalının İstismarı İdarəsi büdcə vəsaiti hesabına elektron satınalma vasitəsilə kanalların və çay məcralarının lildən təmizlənməsi işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə işlərin, mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr, maddi-texniki bazanın mövcudluğu (maşın mexanizmlər və digər məlumatlar), irriqasiya va meliorasiya sistemlərinə aid lisenziya, işlərinin icra qrafiki və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı **300** manatdır.

**Təşkilat: AZƏRBAYCAN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ SAMUR-ABŞERON KANALININ İSTİSMARI İDARƏSİ**
**VÖEN: 3100176751**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ 01360100000000003944**
**S.W. İ. F. T. BIK: CTREAZ 22**
**H/h: AZ34CTRE00000000000002356803**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 mart 2021-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **11 mart 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **12 mart 2021-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***


# Azərbaycanda koronavirusdan 329 nəfər sağalıb, 138 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 329 nəfər müalicə olunaraq sağalıb, 138 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 230 min 907 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 224 min 760 nəfər müalicə olunaraq sağalıb, 3153 nəfər vəfat edib. Aktiv xəstə sayı 2994 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 439 min 718 test aparılıb. Dünənki test sayı isə 6133-dür.

## Tarix olduğu kimi

# 100 ilin zirvəsindən

## Rus-türk konfransı və Moskva müqaviləsi



Türk nümayəndə heyətinin Moskvada Kiyev vağzalında qarşılanması. 1921-ci il

Əvvəli 1-ci səh.

Konfransdakı açılış nitqində G.Çiçerin bildirdi ki, kapital əleyhinə mübarizə Rusiyada kommunist inqilabı formasını almış, Rusiya xalqları azadlıq və öz müqəddəratını təyinetmə uğrunda mübarizə aparan xalqlar arasında xüsusi yer tutmuşdur.

Ondan sonra türk dilində danışan TBMM nümayəndə heyətinin rəhbəri Yusuf Kamal 1920-ci il avqustun 10-da imzalanan Sevr müqaviləsinin Türkiyə üçün heç bir şey saxlamadığını, onu qəbul etməyin mümkün olmadığını və türk xalqının sonadək döyüşmək qərarına gəldiyini söylədi.

Tərəflər işin komissiyalarda davam etdirilməsi barədə razılaşdılar. Fevralın 28-də siyasi komissiyanın iclasında Yusuf Kamal çıxış edərək bildirdi ki, Əsas Milli Akt *(Türkiyənin ərazisini müəyyənləşdirən həmin akt 1920-ci il yanvarın 28-də İstanbulda Osmanlı Deputatlar Palatası tərəfindən hazırlanmış və bütün dövlətlərə elan edilmişdir - M.Q.)* heç bir tərəddüd etmədən qəbul olunmalıdır və onların hətta bu barədə mübahisə etməyə haqqı yoxdur, düzəliş mümkün deyildir.

İclasda 1920-ci il dekabrın 2-də Türkiyə və Ermənistan arasında imzalanmış Aleksandropol (Gümrü) müqaviləsinə münasibət mübahisələr yaratdı. Müzakirələr zamanı G.Çiçerin qətiyyən qəbuledilməz suallar qoydu. Gərgin keçən danışıqlar onunla sona çatdı ki, Yusuf Kamal bildirdi: *"Milli Akt və Aleksandropol müqaviləsi toxunulmazdır"*.

Öz fikrini erməni kommunistlərini maskalanmış daşnak olmaları ilə əsaslandıran Yusuf Kamal dedi ki, Aleksandropol haqqında məsələ Ermənistana aiddir, bu məsələlər Rusiya ilə deyil, həmin dövlətlə həll edilməlidir, türk nümayəndə heyətinin Gürcüstan, Ermənistan və Azərbaycan ilə danışıqlar aparmağa səlahiyyəti yoxdur. Türk nümayəndə heyətinin səlahiyyətinin yalnız Rusiya ilə siyasi və hərbi ittifaq bağlamaq haqqında olduğunu vurğuladı.

Mübahisələr olduğundan konfrans bir həftə müddətinə təxirə salındı. Gərgin vəziyyətin yaranmasında türk heyəti sovet-türk münasibətlərinin yaxşılaşmasında maraqlı olmayan xalq xarici işlər komissarının müavini, milliyyətcə erməni olan L.Karaxanın təsirinin olduğundan şübhələnirdilər. Lakin L.Karaxan sovet idarəçilik sistemine və belə məsələlərə təsir etmək gücündə olan dövlət xadimi deyildi. Ən mühüm məsələləri hətta G.Çiçerinin özü də təkbaşına həll edə bilməzdi. Belə məsələlər ölkədə hakim olan RK(b)P MK Siyasi Bürosunda geniş müzakirə olunmalı, qərar qəbul edilməli və nümayəndə heyətinə göstərişlər verilməli, diplomatlar isə onları yerinə yetirməli idi.

Konfransın gedişi barədə MK-nın məsul katibi (qeyri-rəsmi olaraq baş katibi) və təşkilat bürosunun üzvü Nikolay Krestinskiyə martın 1-də məlumat verən G.Çiçerin yazırdı: *"Türkiyə ilə münasibətlər son dərəcə ciddi, böhranlı həddə çatmışdır, türk nümayəndə heyəti bildirir ki, Milli Akta görə, Batum, Ardahan və Qars türk əraziləridir və yalnız bir dəfə plebissitə icazə verə bilərlər, Türkiyədə qalan ərazilərə toxunmaq olmaz"*.

Konfransın işinin pozulacağından narahatlığını ifadə edən G.Çiçerin qeyd edirdi ki, türk heyəti imperializmə qarşı mübarizədə maraqların ümumiliyinin və inqilabi səylərin vacibliyini bildirmiş, bununla da Aleksandropol müqaviləsinə toxunulmasına qarşı çıxmışdır.

Türklərin mövqeyi haqqında Ankaraya sovet Rusiyasının səlahiyyətli nümayəndəsi P.Mdivaniyə göndərdiyi 1921-ci il 4 mart tarixli teleqramında məlumat verən G.Çiçerin yazırdı ki, bu, əslində Batumun və bütün Ermənistanın Türkiyəyə verilməsi deməkdir. O, belə yanaşmanı sovet Rusiyası üçün qətiyyən qəbuledilməz hesab edərək vurğulayırdı: *"Biz əvvəlcə bilmirdik ki, nümayəndə heyəti bizimlə ittifaq bağlamağa, yoxsa əlaqələri kəsməyə və bizə qarşı material hazırlamağa gəlmişdir. İndi alver gedir. Biz Qars və Ardahanı veririk, lakin heç bir halda Batumu verə bilmərik və Aleksandropol dəmir yolundan qərbə doğru 20 kilometrlik zolağı və Arazdan cənuba doğru ərazini tələb edirik. Batumda Gürcüstan, Aleksandropol və İrəvanda Ermənistan olacaqdır. Naxçıvan isə Rusiyadan bilavasitə asılı olacaqdır. Türklər əvvəlcə ittifaq sözündə israr edirdilər. Lakin İngiltərə ilə aparılan danışıqları nəzərə alaraq, biz onlara bu ifadədən istifadə etməyin mümkünsüzlüyünü bildirdik. Türklər söylədilər ki, onların Ermənistan və Gürcüstan ilə münasibətlərinin bizə (Rusiyaya - M.Q.) aidiyyatı yoxdur. Lakin biz bunu qətiyyətlə rədd edirik. Vəziyyət belədir. Türklərə izah etmək lazımdır ki, sovet respublikaları təbii ittifaqdadırlar. Qars və Ardahanın güzəştə gedilməsi maksimum mümkün olandır"*.

Çiçerinin məktubu konfransın gedişinin sovet rəhbərliyinin ciddi nəzarəti altında olduğunu, Türkiyə ilə münasibətlərin inkişafına xüsusi diqqət verdiyini göstərirdi. Qarşılıqlı münasibətlərə dair ən mühüm məsələlər barədə yekun rəyi Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu bildirirdi.

### Konfransın gedişində rus-türk münasibətlərini pozmaq cəhdləri

Konfrans işini davam etdirərkən iki ölkə arasında münasibətlərdə bəzi çətinliklər hələ də qalırdı. Rus-türk münasibətlərinin inkişafına mane olan başlıca amillərdən biri qatı erməni millətçilərinin fəaliyyəti idi. Doğrudur, daha çox milli partiyaların fəaliyyəti nəticəsində baş verən toqquşmalara və müharibələrə Cənubi Qafqaz sovetləşdirildikdən sonra son qoyulmuşdu. Lakin Ermənistanda hakimiyyətə gələn erməni kommunistləri daşnak siyasətini davam etdirərək rus-türk münasibətlərini pozmaq üçün müxtəlif üsullardan istifadə edirdilər. Məsələn, erməni silahlıları rus və türk əsgərlərinin olduğu yerdə bir rus əsgərini öldürüb meyitini türk tərəfinə atmış və şayiələr yaymışdılar ki, guya onu türklər öldürmüşlər. Ona görə də qırmızı ordu komandanlığına göndərdiyi 1921-ci il 5 mart tarixli məktubunda Naxçıvan və Ordubadda ermənilərin rus-türk dostluğunu pozmağa çalışdığını yazan Kazım Qarabəkir Paşa buna çalışan ermənilərin ciddi cəzalandırılmasını xahiş etdi.

Erməni xadimlərinin müsəlmanlara düşmən münasibət bəslədiklərini, köhnə düşüncələrindən imtina etmədiklərini, rus-türk dostluğunu pozmaq cəhdlərini dayandırmadıqlarını nəzərə alaraq, konfransda edilən təzyiqlərlə əlaqədar yaranmış gərgin vəziyyəti aradan qaldırmaq və erməni dəstələrinin müsəlmanlara qarşı qanlı əməllərinin qarşısını kəsmək üçün türk hökuməti bəzi tədbirlər almağa məcbur oldu. Türkiyə hökuməti Batum istiqamətində ölkənin keçmiş sərhədini tutmaq üçün ordu komandanlığına göstəriş verdi. Hökumətindən aldığı sərəncama uyğun olaraq, Kazım Qarabəkir Paşa bu barədə 1921-ci il martın 10-da İ.Stalinə və G.Çiçerinə çatdırmaq üçün XI ordu komandanlığına göndərdiyi teleqramında bildirdi ki, ordu hissələri Çorox çayının cənubuna doğru Batum istiqamətində Türkiyənin keçmiş sərhədini tutmaq üçün hərəkət edir. Bu hissələr Batumu menşevik dəstələrindən, əgər oraya Antanta orduları gələrdisə, onlardan da təmizləməli idi.

*"Erməni əhalisinin müsəlmanlara düşmən münasibətinin faktlarla təsdiq olunduğunu, bunun heç də arzuedilən olmadığını və bütün müsəlman dünyası üçün narahatverici olduğunu, Batum və Axalkələk rayonlarında ermənilərin hələ də köhnə düşüncələrindən imtina etmək barədə düşünmədiklərini"* yazan Kazım Qarabəkir Paşa türk hökumətinin müsəlmanların belə əzablı vəziyyətdə qalmasını fikirləşmədiyini vurğulayırdı. Bu qərar Ankarada P.Mdivaniyə, həmçinin G.Çiçerinə də bildirilmişdi.

Türk ordusunun hərəkəti sovet hökumətində narahatlıq yaratdı. Çünki Batum Cənubi Qafqazın qapısı olmaqla, sovet respublikalarının həyatını təmin edən bir liman idi.

### Müqavilə layihəsinin müzakirəsi

Konfrans təxirə salındığından yaranmış vəziyyətdən çıxmaq üçün Yusuf Kamal daha nüfuzlu sovet xadimləri ilə görüşmək qərarına gəldi. O, martın 6-da İ.Stalin ilə görüşdükdən sonra danışıqlar bərpa edildi.

Siyasi komissiyanın martın 10-da axşam saat 19.30-da işinə başlayan iclasında Rusiya nümayəndə heyəti Türkiyənin Əsas Milli Aktını tanıdığını bildirdi. Bu, Rusiyanın Sevr müqaviləsinin şərtlərini rədd etməsi, deməli, həmin müqavilə çərçivəsində ermənilərin heç bir əsası olmayan, qondarma istəklərini dəfn etməsi demək idi. G.Çiçerinin fikrincə, bu akt məlum sərhədlərin düzəldilməsini tələb edirdi. Rusiya nümayəndə heyəti sərhəd xəttini aşağıdakı kimi təklif edirdi: Qara dənizdə Sarp, Gediamt dağı, Şavşet sıra dağları, Ardahan dairəsinə qədər keçmiş inzibati sərhədlər, daha sonra Ermənistanda Ağbaba və Qızıldaş dağları, həmçinin Aleksandropol sülh müqaviləsi ilə Ermənistana keçən ərazilər.

G.Çiçerin bildirdi ki, Rusiya hökuməti sərhədlərin Arpaçaydan şərqə və Arazdan cənuba doğru müəyyənləşdirilməsində israr etməyəcəkdir, lakin hərbi nöqteyi-nəzərdən, həmçinin kürdlərin və digər bandaların hücumlarına qarşı Aleksandropol - Naxçıvan dəmir yolunun mühafizəsi zəruridir və Rusiya hökuməti sərhəddən 8 km aralıda ordu saxlamamağı Türkiyədən xahiş edir. Rusiya bu ümumi şərtlər qəbul edildikdən sonra Türkiyə ilə saziş bağlamağa razı idi. Sərhədlərin dəqiqləşdirilməsi təfərrüatlarını hər iki tərəfdən olan hərbi ekspertlər müəyyənləşdirəcəkdilər.

Təklif edilən sərhədi qəbul etdiyini, Arpaçay rayonunda Aleksandropol - İrəvan xəttində dəmir yolu boyunca orduları geri çəkməyə razı olduğunu bildirən türk nümayəndə heyəti onun həyata keçirilməsi vasitəsini aşağıdakı kimi görürdü: Rusiya Əsas Milli Aktla elan edilən prinsipləri qəbul edir; müqavilə ilə müəyyənləşdirilən şimal-şərq sərhədləri və ərazi müəyyənləşdirilir; Türkiyə tərəfi İrəvan dəmir yolunun təhlükəsizliyi ilə bağlı yaranan xahişləri yerinə yetirmək öhdəliyini üzərinə götürür və s.

Daha sonra konfrans Ermənistan ilə sərhəd məsələsinin müzakirəsinə başladı. Türkiyə tərəfi göstərilən zonalarda ordu hissələrini saxlamamağa, lakin öz idarəçiliyini və polisini saxlamağa razılığını bildirdi.

Rusiya nümayəndə heyəti kürdlərin bütün sovet respublikaları üçün daimi təhlükə törətdiyini əsas gətirərək sərhədin Araz çayı boyunca müəyyənləşdirilməsini təklif etdi. Cavabında Türkiyə nümayəndə heyəti bildirdi ki, 8 km ərazidən geri çəkilmək onsuz da böyük güzəştdir. Belə ki, o, tüfəng atəşi ikili distansiyadır və Araz rayonuna tətbiq edilə bilməz, burada çay kifayət qədər müdafiə hesab edilə bilər və bundan başqa, bura 80-100 kilometrlik ərazidir. Bu isə faktiki olaraq həmin zonanın türk ordusu tərəfindən lazım gəldiyi təqdirdə müdafiəsini çətinləşdirir. Türkiyə tərəfi ordunu 8 km zolaqdan geri çəkməyə razılığını bildirdi. Bu, müstəsna olaraq Arpaçay rayonuna aid edilməli idi. Əgər Rusiya tərəfi həmin maddənin Araz rayonuna aid olmasını israr edərdisə, onda türk nümayəndə heyəti bu zonanın 4 km olması ilə razılaşa bilərdi. Türkiyə tərəfi öz hakimiyyətinin sərhədin bu hissəsində mövcud olmasını mümkün hücumlardan və qəsdlərdən qorunmaq zərurəti ilə əlaqələndirdi. Məsələ konkret olaraq kifayət qədər aydın olmadığından hərbi ekspertlərin müzakirəsinə verildi.

Naxçıvan haqqında məsələnin müzakirəsi zamanı Türkiyə nümayəndə heyəti bildirdi ki, türk ordusu olduğu üçün Naxçıvan Türkiyənin protektoratlığındadır. Bununla belə, Türkiyə bu protektoratlığı üçüncü dövlətə verməməyə dair təəhhüd götürmək şərti ilə Azərbaycana verə bilər. Türk heyəti qəti şəkildə dedi: *"Türk ordusu əhalinin dəfələrlə baş verən qırılmasının yenidən təkrarlanmasına biganə qala bilməz"*.

Rusiya nümayəndə heyəti müdaxilənin bu prinsipinin qəbul edilməsinin təhlükəli olduğunu bildirərək əlavə etdi ki, buna bənzər olaraq Qarsda da müsəlman olmayan əhali qırılmışdır. Rusiya tərəfi ona görə də rejimi, həmçinin sərhədi müəyyənləşdirmək və Naxçıvanın Azərbaycanın himayəsi altında protektoratlığı məsələsini qoydu. Əgər belə güzəştə yer verilərdisə, onda bu müqavilənin olmamasının nəticəsi idi. Müqavilənin həmin maddəsi pozulardısa, onda bütün müqavilə pozulmuş olardı. Buna görə də *"xüsusi təminatı qətnaməyə daxil etməməyi"* təklif etdi.

Əslində G.Çiçerinin *"xüsusi təminatı qətnaməyə daxil etməmək"* barədə fikirlərinin arxasında gələcəkdə Naxçıvanın taleyi ilə bağlı məsələdə sovet hakimiyyətinin sonradan istədiyi kimi hərəkət etmək niyyətləri gizlənirdi. Rusiya nümayəndə heyəti bir qədər də irəli gedərək aşağıdakı formulu qəbul edə bilməyəcəyini bildirdi: *"Türkiyə protektoratlığı, Aleksandropol müqaviləsi ratifikasiya edilməmişdir, türk ordusunun əhaliyə müraciəti belə bir protektoratlıq üçün hüquqi cəhətdən kifayət qədər əsaslandırılmamışdır. Digər tərəfdən, xalqın suverenliyi həyati mövcudluq hüququ üzərində güzəştlərə yol vermir. Nəhayət, Azərbaycanın təmsil olunmadığı konfransda Azərbaycanın yerinə yetirəcəyi öhdəliyi verməyi müqaviləyə daxil etmək çətindir"*.

Qəribə bir mövqe idi. G.Çiçerin Gürcüstanın iştirak etmədiyi konfransda Batumu Gürcüstan üçün, Ermənistanın iştirak etmədiyi konfransda Azərbaycandan Ermənistan üçün əlavə torpaqlar qoparmağa çalışır, eyni ilə Azərbaycanın iştirak etmədiyi elə həmin konfransda tarixi Azərbaycan torpağı olan Naxçıvanı alıb Ermənistana vermək istəyirdi. Bu yanaşma G.Çiçerinin Azərbaycana və Azərbaycan xalqına olan münasibətinin göstəricisi idi.

Naxçıvanın Ermənistana verilməsinə çalışan G.Çiçerin bunun mümkün olmadığını gördükdə, Naxçıvanın Azərbaycan ilə qırılmaz əlaqəsini və onun himayəsi altında muxtariyyətdən istifadə etməsini müəyyənləşdirən formulu tapmağı təklif etdi. Türkiyə nümayəndə heyəti həmin formulun ikinci hissəsini aşağıdakı redaktədə verməyi xahiş etdi: *"Bu şərtlə ki, Azərbaycan bu protektoratlığı heç bir üçüncü dövlətə güzəştə getməyəcəkdir"*.

Naxçıvanın sərhədləri hərbi ekspertlər tərəfindən müəyyənləşdirilməli idi.

Müqavilənin forması məsələsi üzrə tərəflər razılaşdılar ki, hər iki nümayəndə heyəti müqaviləni ağırlaşdırmamaq üçün onun arxasında ideya əhəmiyyətini saxlayırlar, sərhədlərin dəqiq müəyyənləşdirilməsi xüsusi akta daxil ediləcək və eyni hüquqi qüvvəyə malik olacaq, müqavilə isə yalnız əsas qətnamələri özündə əks etdirəcəkdir.

Rusiya nümayəndə heyəti bəyan etdi ki, əgər sərhədlər müəyyənləşdirilərsə, onda maraqlı olan bütün dövlətlərin suverenliyi öz sərhədləri daxilində tam həyata keçiriləcəkdir və bir tərəfdən Türkiyə ilə Ermənistan, digər tərəfdən Gürcüstan ilə müqavilədə heç bir şey onu məhdudlaşdıra bilməz. Rus nümayəndə heyətinin fikrincə, bu, sazişin əsas şərti idi. Nümayəndə heyəti bildirdi ki, onun hökuməti sovet respublikalarının hüquqlarını onların sərhədləri daxilində məhdudlaşdıran silahlı qüvvələrin azaldılması və ya onun üzərində nəzarət qurulması haqqında qətnamələrlə razılaşa bilməz, əgər Türkiyə hökuməti sovet respublikaları ilə danışıqlarda onları belə məhdudlaşdırmaya razı salmağa məcbur edərsə, Rusiya Sovet Respublikası belə hərəkəti özünə qarşı yönəldilmiş kimi qəbul edəcəkdir.

Türk nümayəndə heyəti isə cavabında bildirdi ki, bundan belə aydın olur, Rusiya hökuməti Türkiyənin həmin respublikalarla müqavilələr bağlamasına etiraz etmir. Belə yanaşma Rusiyanın vasitəçiliyi ilə Türkiyənin Azərbaycan, Gürcüstan və Ermənistanla ərazi-sərhəd məsələlərini tənzimləmək üçün zəmin hazırlamaq demək idi.

Bundan sonra müqavilənin maddələr üzrə oxunuşuna başlandı. Birinci maddə üzrə Rusiya nümayəndə heyəti təklif etdi ki, Əsas Milli Aktın tanınması haqqında Rusiya hökumətinin bəyanatı sərhədlərin təsvirinin düzəldilməsi düzəlişi ilə dəyişdirilsin. Türkiyə nümayəndə heyəti razılaşaraq, burada sərhədlərin ümumi təsvirini verməyi təklif etdi.

Bu məsələ barədə müzakirələr başa çatdıqdan dərhal sonra, martın 10-da RK(b)P MK-ya məktub göndərərək danışıqların gedişi barədə məlumat verən G.Çiçerin yazırdı ki, Naxçıvan Azərbaycanın protektoratlığı altında və Azərbaycanın bu protektoratlığı digər ölkəyə verməmək şərti ilə muxtar ərazi olaraq qəbul edilmişdir, bütün bu düzəlişlər Türkiyə ilə sazişin pozulmaz şərtidir.

Türkiyə ilə müqavilə haqqında martın 10-da RK(b)P MK-ya yenidən öz fikirlərini yazan G.Çiçerin bildirdi ki, müqavilənin əsas tərkib hissəsi Türkiyə ilə ərazi sazişi olacaq, ərazi məsələsi yalnız əsas maddələr, sərhədin müfəssəl təsviri isə xüsusi protokolda olacaqdır. Göndərdiyi məktubuna hələ 1920-ci il rus-türk danışıqları zamanı prinsipcə qəbul edilmiş müqavilə layihəsini əlavə edən G.Çiçerin onu son olaraq formalaşdırmağı təklif etdi. Layihəyə əlavələr və düzəlişlər edilə bilərdi.

Birinci maddədə əraziyə münasibətdə Milli Akt haqqında xatırlatma yerində G.Çiçerin artıq, türk Milli Aktını tanımaq təklifini qəbul etdiyini yazırdı. Bu akt türk xalqının öz müqəddəratını təyinetməsi demək idi.

G.Çiçerinin hər iki məktubunu müzakirə edən RK(b)P MK Siyasi Bürosu konfransın gedişini bəyəndi. Bundan sonra da konfrans öz işini davam etdirə bilərdi.

Siyasi komissiyanın növbəti iclası martın 12-sində işinə başladı. İclasda Rusiya tərəfdən G.Çiçerin və Cəlaləddin Qorxmazov, Türkiyə tərəfdən Yusuf Kamal, Rza Nur və Əli Fuad, rus hərbi ekspertləri Samoylo, Bobrişev, türk hərbi ekspertləri Seyfi və Safvet iştirak edirdilər.

*Nümayəndə heyətləri, ilk növbədə, 10 mart tarixli iclas protokolunu nəzərdən keçirdilər, söylənilmiş bəzi fikirlərə dair öz mülahizələrini bildirdilər. Türk nümayəndə heyəti protokola daxil ediləcək düzəlişlər və qeydlər haqqında məlumat verdi. Sərhədlərin təxmini təsviri haqqında türklərin qeydinə cavab olaraq rus nümayəndə heyəti bildirdi ki, burada düzəlişlərin edilməsinə ehtiyac yoxdur, çünki türk nümayəndə heyəti sərhəd xəttinin hərbi ekspertlər tərəfindən yerində müəyyənləşdiriləcəyi, protokola daxil ediləcəyi, xəritəyə köçürüləcəyi və hər iki nümayəndə heyəti tərəfindən imzalanacağı təklifi ilə artıq razılaşmışdır.*

*(ardı var)*

**Musa QASIMLI,**
***Milli Məclisin deputatı,***
***AMEA-nın müxbir üzvü, professor***

# Erməniləri böyük fəlakətə sürükləyən "Böyük Ermənistan" xülyası

## Saxta iddiaları, şovinizmi yayan erməni kilsələri və məktəbləri bu xalqın ən böyük düşməninə çevrilib

**Müasir dövrdə "kimlik" ən mühüm anlayışlardan olub, geniş mənada fərdin bütün xüsusiyyətlərini əhatə edir. Bir insanın özünü necə görməsi, qəbul etməsi və cəmiyyət tərəfindən onun necə görünməsi kimlik anlayışı ilə əlaqəli mövzulardır.**

Mövzu əsasında erməni kimliyinə gəldikdə isə qeyd edilməlidir ki, ümumi olaraq iki erməni kimliyi vardır: Ermənistan ermənisi və diaspor ermənisi. Eyni coğrafiyadan və cəmiyyətdən dünyanın müxtəlif bölgələrinə yayılmış erməni diasporu müəyyən kimlik xüsusiyyətlərini qorumuş, eyni zamanda köç edilən ölkələrin subyektiv şərtlərinə görə fərqli mədəniyyətlərin strategiyasını da qəbul etmişdir.

Erməni icması üçün həm real, həm də xəyali bir vətən anlayışı var. Ermənistan Respublikası müxtəlif ölkələrdə yaşayan erməni icmaları üçün müstəqil və həqiqi bir vətən anlayışı yaradır və təmin edir. Ancaq vurğulanması lazım olan məqam ondan ibarətdir ki, diaspor erməniləri daha çox indiki vətənləri olan Ermənistanın əvəzinə xəyali vətənləri kimi "Böyük Ermənistan"ın ideyasına diqqət yetirirlər və erməni kimliyini bu xəyali vətən anlayışı çərçivəsində yaratdıqları sosial gerçəkliyə görə qururlar, nəticə etibarilə də fəlakətə sürüklənirlər.

Osmanlı imperiyası dövründə tətbiq olunan "millət" sistemi və 1863-cü ildə Erməni Millətinin Əsasnaməsinin qüvvəyə minməsi nəticəsində imperiya sərhədləri içərisində olan erməni icmasının rəsmi nümayəndəsi erməni kilsəsi olaraq qəbul edildi. Erməni kilsəsi həm kimlik, həm də sosial sahədə erməni icması üçün vacib yerə sahibdir. Bu proses isə kilsəyə siyasi olaraq erməni kimliyi formalaşdırmaq üçün güc və səlahiyyət verdi.

Tarixən erməni kilsəsi Osmanlı imperiyası daxilindəki bütün erməni üsyanlarında fəal iştirak etmiş və erməni icmasının siyasiləşməsində ən vacib katalizator rolunu oynamışdır. Kilsə erməni icmasının köç etdiyi ölkələrdə erməni şüurunun inkişafında ən güclü institusional quruluş olmuşdur. Başqa sözlə, erməniliyin ən vacib əlaməti erməni kilsəsinə sədaqətdir. Çünki erməni icmasının köç etdiyi ölkələrdəki erməni kilsələri, bu cəmiyyətin kimliyini qorumaq və gələcək nəsillərə ötürmək üçün istifadə olunan yeganə qurum olduğu iddia edilə bilər.

Birinci Dünya müharibəsindən sonra və Osmanlı imperiyasının dağılması ilə imperiya tərkibində məskunlaşan ermənilərin çoxu Livana, Livandan sonra isə əsasən Fransaya, ABŞ-a köç etdilər. Hazırkı dövrdə erməni diasporunun ən fəal olduğu ölkələrdən biri ABŞ-da təxminən 900.000 erməni əhalisinə xidmət edən 182 ayrı kilsə və bu kilsələrə bağlı ümumilikdə 1222 fond var. ABŞ-da demək olar ki, bütün əyalətlərə səpələnmiş bu kilsələr əsasən Kaliforniya, Nyu York və Nyu Cersidə yerləşir. Kanadada təxminən 60.000 erməni əhalisinə xidmət edən 21 kilsə və kilsələrə bağlı 390 fond, Livanda təqribən 120.000 erməni əhalisinə xidmət edən 77 erməni kilsəsi, Fransada isə təxminən 750.000 erməni əhalisinə xidmət edən 98 kilsə və kilsələrə bağlı 977 fond var. Adıçəkilən kilsələr Qriqorian, katolik erməni və protestant erməni kilsələrinin ümumi sayına aiddir. Göründüyü kimi, erməni icmasının yerləşdiyi ölkələrdə erməni kilsələrinin və kilsəyə bağlı fondların sayı kifayət qədər çoxdur. Erməni kilsəsinin erməni milli kimliyinə təsirini nəzərə alaraq, erməni diasporunda erməni kimliyi ilə evsahibi ölkənin kimliyi arasında bir sərhəd yaratma cəhdinin olduğu güman edilə bilər.

Livandakı erməni əhalisinin sayı təxminən 120.000 civarında olsa da, erməni diasporunun ən radikal qruplarından birini təşkil etməkdədir.

Livanda uzun illər davam edən etnik əsaslı vətəndaş müharibəsi və erməni icmasının bu müharibədə olması onsuz da digər etnik qruplarla münasibəti olmayan Livan ermənilərini daha da radikallaşdırdı və 1970-1980-ci illərdə ASALA kimi təşkilatlarla həyata keçirilən erməni terrorizminin lokomotivinə çevirdi. Başqa sözlə, yaşadıqları ölkədə ayrılmaq (seperation) və ayrı-seçkilik (segregation) strategiyalarının digər ölkələrdə yaşayan erməni icmaları ilə müqayisədə Livandakı erməni icması üçün keçərli olduğu deyilə bilər.

Qərbi Avropada ən böyük erməni cəmiyyəti məhz Fransada yerləşir. Fransaya ermənilərin köçü əsasən XIX əsrin əvvəllərindən başlamışdır. Davam edən bu proses XX əsr boyu davamlı immiqrasiya sayəsində Fransada güclü erməni diasporu meydana gəlmişdir. Belə ki, Osmanlı imperiyasının dağılması, tarixi şəraitlə birlikdə digər proseslərin yaratdığı səbəblərdən minlərlə erməni Fransaya köç edib və 1920-1930-cu illər ərzində 50.000-60.000 arası erməni Fransada qaçqın statusu alıb. Fransanın ermənilər üçün köç mərkəzi olmasının digər bir səbəbi isə Osmanlı imperiyasının fransız mədəniyyətindən çox təsirlənməsi və ermənilərin də əsasən Osmanlı hakimiyyəti altında yaşaması göstərilə bilər. Hazırda Fransada 750.000-ə yaxın ermənin yaşadığı güclü erməni icması var.

Təkcə 100.000-dən çox ermənin yaşadığı Marseldə erməni adında 18 küçə və fəaliyyətdə olan 12 erməni kilsəsi var. Həmçinin Marseldə də digər böyük şəhərlərdə olduğu kimi, erməni dilində qəzet çap olunur və yerli erməni telekanalı fəaliyyət göstərir. Lion şəhərində də təxminən 100 min erməni əsilli fransız məskunlaşmışdır. Şəhərdə erməni dilində iki radiostansiya fəaliyyət göstərir: "Radio Armynie" və "Radio-A" (erməni dilində "France-Armynie" jurnalı da nəşr olunur. Bundan əlavə, kilsə və erməni dilində fəaliyyət göstərən məktəblər, fondlar, müxtəlif istiqamətli təşkilatlar və klublar və s. demək olar ki, bütün Fransa boyu fəaliyyət göstərir.

Fransadakı erməni icmasının yalnız 2000-ə yaxın tələbəsi erməni məktəblərinə gedir. Xüsusilə erməni gəncləri arasında erməni dilində danışa bilənlərin sayı olduqca azdır. Bu, ildən-ilə azalır. Digər tərəfdən, ermənilik məsələsində fanatik sayılanların sayı 20.000-ə qədərdir. Bundan əlavə, fransız elmində, mədəniyyətində, sənətində və siyasi həyatında çox sayda erməni var. Məsələn, keçmişdə Fransanın xarici işlər naziri olaraq çalışan Patrik Deveciyan və məşhur fransız mədəniyyət xadimi Şarl Aznavur erməni mənşəlidir.

Ermənilərin Fransanın səlahiyyətli şəxsləri ilə çox yaxşı əlaqələri olan sosial-mədəni klubları, dini və xeyriyyə təşkilatları, dərnəkləri, media qurumları və hətta siyasi partiyaları var. Fransa daxilində bu təşkilatlar tərəfindən Qarabağ münaqişəsi ilə bağlı qondarma "Dağlıq Qarabağ Respublikası" və türk düşmənçiliyi də daxil olmaqla, erməni dəyərləri daima tərənnüm edilir, xatırlanır və populyarlaşdırılır. Fransadakı ermənilərin "Fransa erməniləri" olmaqdan daha çox "erməni əsilli fransızlar"a çevrildiklərini qeyd etmək olar. Erməni icması Fransanın xüsusilə mədəni və siyasi sahəsində, ictimai həyatında çox fəal iştirak edir.

*Erməni kimliyinin formalaşmasında iki əsas faktor - kilsə və məktəb əsas rol oynayır ki, hər ikisinin əsasında da ermənilər yaşadıqları ölkələrdə öz kimliklərini istədikləri kimi yaşayır və bunu gizlətməkdən çəkinmirlər. Ermənilər bir yerə köç etdikdə məktəbdən əvvəl birinci erməni kilsəsini inşa etdirirlər, çünki hər bir ermənininin dini və bunun əsasında cəmiyyət, birlik ehtiyacı kilsədən başlayır. Kilsə erməni üçün dindən daha çox mədəni və birlik ehtiyacı yaradır, çünki bu ermənilərin erməni olması üçün dini və daha sonra isə məktəb fəaliyyətinin təmin edilməsi üçün vacibdir. Onların varlığı erməni kimliyinin birinci təminatçısıdır. Akademik mənbələrə əsasən, erməni kimliyi köçlər və tarixi proseslər, yaşadıqları cəmiyyətdə baş verən hadisələrin fonunda müəyyən təsirlərlə bir neçə faktor əsasında formalaşıb: "ilk xristian dövlətinin" sahibi kimi ermənilər; postxristianlıq dövründə millətçi ermənilər; 1915-ci il "erməni soyqırımı"ndan sonra sürgündə olan ermənilərin "sürgün kimliyi"; erməni millətçiliyi və "Böyük Ermənistan" xəyalı...*

Bu kimlik fərqləri ermənilərin diaspor fəaliyyətlərində də özünü göstərir və müəyyən zaman kəsimlərində bu kimliklərdən hər hansısa birinin daha aktiv rol oynadığını görə bilirik. Ermənilərin əsasən müsəlmanlar arasında yaşaması və onların xristian olaraq yaşadıqları cəmiyyətdə azlıq olmaqlarından irəli gələn səbəblər başlıca olaraq bu birlik duyğusunun formalaşmasına və bunun davam etdirilməsi ehtiyacından yaranan səbəblərdən diaspor fəaliyyətinin formalaşmasına təsir etmişdir. Bu dövrlər ərzində müəyyən erməni diaspor qrupları yaranmış və hər biri müəyyən sahələrdə ermənilərin ehtiyaclarını ödəməyə çalışmışdır. "Sürgün kimliyi"i İkinci Dünya müharibəsindən sonra əsasən 1950-ci illərdən başlayaraq 1980-ci illərin ortalarına qədər daha çox qabardılıb xristian kimliyi ilə birləşdirilərək daha da gücləndirilmişdir. İkinci Dünya müharibəsindən sonrakı dövr ərzində "sürgün kimliyi" əsasında aqressiv diaspor mövqeyi seçilmişdir. Bu baxımdan türklərin "erməni soyqırımı" etməsinə olan inamın yaratdığı hərəkətverici qüvvə sayəsində həm siyasət, həm də terror aktları vasitəsilə Türkiyəyə qarşı təzyiqlər artırılmışdır ki, buna misal olaraq Türkiyə diplomatlarına qarşı təşkil edilən qətlləri və ASALA terror qruplaşmasının çoxsaylı terror aktlarını göstərmək olar.

Hazırda erməni diasporundakı aparıcı qüvvə isə son mərhələ olan erməni millətçiliyi və "Böyük Ermənistan" xəyali ideyasının olmasıdır. "Böyük Ermənistan" xəyalı SSRİ-nin dağılması ilə siyasi müstəvidə yaranan boşluq və qeyri-müəyyənlikdən istifadə imkanlarının ortaya çıxması ilə güclənmişdir. Erməni diasporunun fəaliyyətində erməni millətçiliyi daha qabarıq olsa da, bəzi diasporların siyasi gündəliyində hələ də digər iki faktor mühüm rol oynayır. Əlbəttə ki, erməni diasporu əsasən Azərbaycana və Türkiyəyə qarşı yönəlmiş fəaliyyətlə son 30 ildə Dağlıq Qarabağ və ətrafyanı bölgələrə olan iddialar qismində, "dənizdən-dənizə "Böyük Ermənistan" xəyali ideyası" ilə qondarma "Dağlıq Qarabağ Respublikası"nın və "erməni soyqırımı"nın dünya dövlətləri tərəfindən tanınması üçün aparılan işlərdə də özünü göstərmişdir.

Qalust Qolbenkyan Fondu erməni icmaları departamentinin direktoru Razmik Panossiyan erməni diasporunun öz tarixi etibarilə daha çox mərkəzləşməmiş bir qurum olduğunu vurğulayır. Sovet İttifaqı dövründə diasporu idarə etmək və SSRİ-yə qarşı olmaması üçün aparılan yumşaq təbliğat nəticəsində diasporda 1970-ci illərdən sonra sovet Ermənistanının bütün ermənilərin ortaq mərkəzi olduğu fikri formalaşmışdır. Sovet Ermənistanına ən kəskin mövqedə duran daşnak partiyası belə 1980-ci illərdən sovet Ermənistanını ermənilərin ortaq vətəni olaraq qəbul etmiş və 1990-cı illərdən bu vətənin əsas təmsilçiləri kimi ortaya çıxmağa cəhd etmişdi.

Ermənilərin sıx yaşadığı və effektiv olduğu ölkələrin sırasında olan Fransada təxminən 750.000 erməni əhali həm seçkilərdəki səs sayına, həm də var olan diaspor qrupları ilə Fransa siyasətinə müəyyən qədər yön verir və ya yön verməyə çalışır. Fransada yerləşən təşkilatlardan Ramkavar, Daşnaksütyun, Hınçak, Fransa Ermənilərinin Göy Xaçı, Fransa erməni fondları, Torpaq və Mədəniyyət Assosiasiyasını misal göstərmək olar. Bu təşkilatların hər biri müəyyən bir sahə üzrə ixtisaslaşaraq diaspor fəaliyyətini davam etdirir. Bu fəaliyyət sadəcə ermənilərin yaşadıqları ölkə siyasətinə təsir etmək yönündə deyil, həm də Ermənistana, ya da ermənilərə kömək funksiyasını da yerinə yetirir. Məsələn, Ramkavar liberal burjua ermənilərini özündə birləşdirir, 22.000-dən çox üzvə sahibdir və 200 milyona yaxın büdcəyə malikdir. Əsasən elm və təhsil sahələrində işlər görməyə çalışır. Digər tərəfdən, Fransa ermənilərinin Göy Xaçı təşkilatı əsasən qadınlardan ibarətdir və Fransanın müxtəlif bölgələrində yaşlılara kömək edir, dil kursları keçir və bu kimi fəaliyyətlərdə iştirak edir. Fransa erməni fondları isə Ermənistanda sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmağa dəstək olurlar.

Erməni diasporu Ermənistan dövlətindən daha əvvəllər mövcud olduğundan erməni kimliyini diasporda itirməmək üçün səylər göstərir və dövləti olan bir millətin diasporu kimi deyil, hələ də dövləti olmayan diasporların xüsusiyyətlərini özündə əks etdirir, ən əsası isə Ermənistan dövlətinə bağlı deyil. Bu məqamda qeyd etmək lazımdır ki, Azərbaycan diaspor qurumları daha çox dövlətə bağlıdır. Çünki Azərbaycan diasporu, dövləti olan bir millətin diasporu kimi qurulub.

Ümumilikdə, erməni kimliyi içərisində olduqları digər cəmiyyətlərdə də qoruyan erməni kilsəsi və erməni məktəblərinin varlığıdır ki, onların olmadığı yerdə kimlik anlayışı havaya sovrulur.

***Elnarə QƏRİBOVA,***
***Ankara Universitetinin Avropa İttifaqı Hüququ üzrə doktorantı***

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Samur-Abşeron Kanalının İstismarı İdarəsi büdcə vəsaiti hesabına elektron satınalma vasitəsilə hidrotexniki qurğuların mexaniki avadanlıqlarının detallarının satın alınması üzrə

### *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə), keyfiyyət uyğunluğuna dair göstəricilər (mal-materialların keyfiyyət zəmanəti və digər standartlara dair təsdiqedici sənədlər), alınması nəzərdə tutulan mal-materialların tələb olunan vaxtda təhvil verilməsi (sifarişçinin yazılı sifarişindən sonra 15 bank günü müddətində) və ən aşağı qiymət təklifi.**

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı **300** manatdır.

**Təşkilat: AZƏRBAYCAN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ SAMUR-ABŞERON KANALININ İSTİSMARI İDARƏSİ**

**VÖEN: 3100176751**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ 01360100000000003944**
**S.W. I. F. T. BIK: CTREAZ22**
**H/h: AZ34CTRE00000000000002356803**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqını təsdiq edən sənəd;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 mart 2021-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **11 mart 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **12 mart 2021-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## Salyan Suvarma Sistemləri İdarəsi 2021-ci il üçün nəzərdə tutulan Kürkənd Üzən Nasos Stansiyanın (gövdəsinin alt hissəsinin, çıxış borularının, şar birləşmələrinin, mexaniki avadanlıqlarının və elektrik təsərrüfatlarının) təmiri işlərinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqələndirici şəxs: Əliyar Əliyev
Ünvan: Salyan şəhəri, Nizami küçəsi, 4
E-mail: salyanssi@mail.ru
Tel: (021) 25 54 08
**İştirak haqqı:**
**LOT 1:** 60 (altmış) manat

***Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:***

**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Salyan Suvarma Sistemləri İdarəsi**
**Hesab: AZ78CTRE00000000000002353101**
**VÖEN: 7000047291**
**Bank: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox) qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 mart 2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə **10 mart 2021-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 11 mart 2021-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, təkliflərin qiymətləndirilməsi və digər bütün prosedurlar elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Salyan Suvarma Sistemləri İdarəsi 2021-ci il üçün nəzərdə tutulan Kür çayının Şirvan ərazisində idarənin balansında olan suvarma kanallarının lildən təmizlənməsi işlərinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqələndirici şəxs: Əliyar Əliyev
Ünvan: Salyan şəhəri, Nizami küçəsi, 4
E-mail: salyanssi@mail.ru
Tel: (021) 25 54 08
**İştirak haqqı:**
**LOT 1:** 60 (altmış) manat

***Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:***

**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Salyan Suvarma Sistemləri İdarəsi**
**Hesab: AZ78CTRE00000000000002353101**
**VÖEN: 7000047291**
**Bank: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox) qüvvədə olmalıdır);*
